Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (7957) ŞƏNBƏ, 13 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Möhtəşəm zəfər salnaməsi

## Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq



*Bu il müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə geniş qeyd edilir. Prezident İlham Əliyev bu hadisəni xalqımızın tarixinin çox mühüm və şərəfli səhifələrindən biri kimi xarakterizə edərək demişdir: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır". Dövlət başçısı cümhuriyyətin tarixinə, onun qurucularının xatirəsinə daim böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl Prezidentin sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmış, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmuşdur. Lakin Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə və onun qurucularının xatirəsinə ən böyük ehtiramı onların ideyalarını yaşatması, demokratiya arzularını reallaşdırması, Azərbaycanın müstəqilliyini və suverenliyini etibarlı şəkildə qorumasıdır desək, heç də yanılmarıq...*

***Bir neçə gündən sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Bir tərəfdən SSRİ-nin süqutu ərəfəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldıran separatizm daha da güclənmişdi, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi, soydaşlarımızın 1 milyona qədəri qaçqın və məcburi köçkünə çevrilmişdi, digər tərəfdən isə ənənəvi iqtisadi-ticarət əlaqələri pozulmuşdu, ölkəni iqtisadi və siyasi böhran bürümüşdü. Yalnız 1993-cü ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli-vətəndaş birliyi yaradıldı və cəmiyyət həyatının bütün sahələrində yenidənqurmaya başlanıldı. Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!" ifadəsi qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı. Oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam olur. Bununla əlaqədar olaraq cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postundakı fəaliyyətinin 15 illiyi haqqında bəzi düşüncələrimi oxuculara çatdırmaq istəyirəm.***

*Ümumi formada qiymətləndirsək,* cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə, **ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.**

*İkincisi,* **Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşmışdır.**

*Ayrı-ayrı sahələr üzrə təhlil aparsaq görərik ki,* son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi** istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

2012-ci ildə "Siyasi partiyalar haqqında" qanuna edilmiş əlavələrə görə, siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Siyasi partiyalar ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak edir. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

Ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına ciddi əhəmiyyət verilir. Cənab Prezidentin sərəncamları ilə 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilmiş, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır. 2008-ci ildə fəaliyyətə başlayan şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirmişdir.

*Ardı 2-ci səh.*

# 15 il

## Əsrə bərabər



**Çingiz Aytmatovun əsərlərini çox sevirəm. Onun yaradıcılığına həmişə heyran qalmışam...**

**Həyat xatiratımın ən şərəfli, unudulmaz məqamlarından biri də ümumdünya ədəbiyyatının fəxri sayılan bu ədiblə olan dostluq münasibətlərim, şəxsi və yaradıcılıq əlaqələrimdir...**

**Türk dünyasının bu böyük övladının titullarını özüm qəsdən sadalamadım. Çünki Çingiz Aytmatov adının başqa bir xatırlatmaya ehtiyacı yoxdur. Bu ünlü qırğız yazıçısının bütün titulları, ədəbiyyat tarixindəki ali statusu onun əsərləridir...**

**O əsərlər ki, onlarda bizi düşündürüb narahat edən çox mətləbləri tapmaq olur...**

**"Gün var əsrə bərabər" romanı isə bu əzəmətli qələm adamının ən kamil mətnlərindəndir. Romanda ən kiçik detaldan tutmuş adi bir eyhama, xırdaca işarələrə qədər hər şey əvvəldən düşünülüb, yerbəyer edilib...**

İlk səhifələrdə o qədər də diqqəti çəkməyən, bəlkə də əhəmiyyətsiz görünən hansısa detalın o biri səhifələrdəki zəruri düşüncə akkordu ilə nöqtəsinin qoyulduğunu görürsən. Və yalnız onda anlamağa başlayırsan ki, ilk oxuduğunda o qədər də fərqinə varmadığın o balaca işarətin nə qədər böyük mənası varmış.

Bu əsrdə müəllif bir günün içində əsrə bərabər tarix yaşayan müdrik adamların taleyini məhək daşına vurur...

Onları zamanın dolanbaclarından keçirib hamımızı düşündürən bəşəri suallara cavab axtarır...

❖ ❖ ❖

Tarixdə bir gün...

Bir gündən başlanan tarix...

Əsrə bərabər gün...

Çingiz Aytmatov romanına bu möhtəşəm adı sırf bədii təxəyyül məhsulu olaraq qoymayıb. Burada gün sözü, hər nə qədər şərti səciyyə daşısa da, yəni gün adı altında ayları, illəri, dövrləri də ümumiləşdirmək mümkün olsa da, iş orasındadır ki, ayrı-ayrı ölkələrin, xalqların tarixində həqiqətən bütöv əsrlərin mənzərəsini müəyyənləşdirən konkret günlər yaşanıb.

Cəmi bircə gün içində yaşananlar, o gün ərzində cərəyan edən hadisələr, qərarlar əsrlərin vaxt axarını dəyişib, yüzillər sonranın reallıqlarına təsir göstərib...

Və əziz oxucum, yəqin, hər dəfə bu barədə düşüncələrə qapılarkən onu da xəyalına gətirmisən ki, həmin gün o hadisə, o qərar elə yox, belə olsaydı, onda mövcud reallıqlar tamam fərqli görünərdi...

Viktor Hüqonun "Səfillər" əsərində də hər dəfə oxuyanda düşüncələrimi alıb uzaqlara götürən misilsiz bir cümlə var. Orada Vaterleoo döyüşünə hazırlığın son gecəsi təsvir edilir və yazılır ki, əgər 1815-ci ilin 17 iyunundan 18 iyununa keçən gecə Vaterleoo düzünə yağış yağmasaydı, Avropanın gələcəyi tamam başqa cür olacaqdı.

Təsəvvür edirsinizmi, adi bir yağış!..

Hər gün dünyanın müxtəlif yerlərində baş verən sıradan təbiət hadisəsi...

Amma konkret bir vaxtda, konkret bir yerdə baş verən bu təbiət hadisəsinin tarix üçün doğurduğu nəticəyə bir baxın...

Həmin gecə əraziyə yağan yağış torpağı isladıb palçığa döndərmişdi. Bu da Napoleon Bonaparta öz toplarını döyüş mövqelərinə gətirməyə mane olmuşdu.

Nəticə - İngiltərə və Prussiya ordularına ağır məğlubiyyət, o gündən gərdişi dəyişən Avropa tarixi...

❖ ❖ ❖

Əsrlərin tale mənzərəsini cızan bu cür günlərə öz tariximizdə də yetərincə rast gələ bilərik.

Şah İsmayıl Xətai Çaldıran döyüşündə məğlub olmasaydı...

Nadir şahı süquta aparan günlərin hadisələri tamam başqa cür cərəyan etsəydi...

Əvvəlcə "Gülüstan", ardınca "Türkmənçay" müqavilələri ilə bir xalq iki fərqli coğrafiyaya, iki fərqli taleyə bölünməsəydi...

Ya Azərbaycan Xalq Cümhuriyyətinin ömrünə nöqtə qoyan məşum 27 aprel günü tarixdə heç yaşanmasaydı...

*Ardı 3-cü səh.*

# İlham Əliyevin "ictimai sabitlik modeli" MDB-də nümunədir

## Azərbaycan sabitliyə görə postsovet məkanında ilk yerdədir

**İnkişaf yolunda inamla, möhtəşəm nailiyyətlərə imza atmaqla irəliləyən Azərbaycan qısa zaman kəsiyində böyük uğurlar əldə edib, sosial-iqtisadi göstəricilərinə görə dünya miqyasında liderlər mövqeyinə yüksəlib.**

Bunun nəticəsində həm də yerləşdiyi regionun iqtisadi və siyasi cəhətdən aparıcı dövlətinə çevrilən respublikamız dünya birliyinə fəal inteqrasiya istiqamətində də mühüm addımlar atıb və beynəlxalq hüququn tam müstəqil, cəsarətli mövqeyi ilə seçilən, siyasi kursu nəzərə alınan subyektinə çevrilib.

Ümumiyyətlə isə uğurları qlobal miqyasda qəbul edilməyən ölkə beynəlxalq aləmdə nüfuz sahibinə çevrilə bilməz, yüksək imicə malik olmaz.

*Ardı 6-cı səh.*



# Sabitlik, dinamik inkişaf və mütərəqqi islahatlar strategiyası

**Tarixən seçki hüququ insan haqları uğrunda mübarizənin əsas hədəflərindən olmuş, insanlar gələcək müqəddəratları baxımından bu prosesə son dərəcə məsuliyyətlə yanaşmışlar.**

Yaranmış əlverişli tarixi şəraitdə gələcək baxımından daha xeyirli olanı seçən xalqlar bununla həm də dünya miqyasında özünütəsdiq şansı qazanmış, etnos kimi nəyə qadir olduqlarını nümayiş etdirmişlər. Azərbaycan xalqının milli düşüncəsində də seçim anlayışı hər zaman məsuliyyətli, həyati əhəmiyyət kəsb edən məsələ kimi qərarlaşmışdır.

Siyasi varisliyin hüquqi əsasda təminatı məsələsi sabahına biganə olmayan hər bir dövlət, cəmiyyət üçün aktuallıq kəsb edir. Məsələnin mahiyyəti ölkənin və dövlətin sabit, dinamik inkişafının, siyasi, hüquqi və mənəvi varisliyin, dünya inkişafının müsbət tendensiyalarına uyğun proseslərin təkamül yolu ilə davam etdirilməsi xəttinin qorunmasından ibarətdir. Siyasi varisliyin uğurlu formulu, əslində, reallığa adekvat mütərəqqi ideya və proqramların xalqın iradəsinə söykənən hakimiyyət vasitəsilə həyata keçirilməsi prinsipinə söykənir.



Müstəqil Azərbaycanın çağdaş tarixinə əlamətdar hadisə kimi daxil olaraq bütün həyati əhəmiyyətli sahələrdə dinamik inkişafa yol açan 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən Heydər Əliyev siyasi kursunun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını tam sübuta yetirmişdir. 15 il əvvəl məhz həmin seçkilərdə xalqın böyük etimadını qazanaraq dövlət başçısı seçilmiş cənab İlham Əliyevin fəaliyyəti bu baxımdan mövcud siyasi strategiyanın varisliyinin təmin olunmasında yeni bir mərhələnin başlanğıcı kimi tarixiləşmişdir.

Tarix sübuta yetirmişdir ki, hakimiyyəti xalqın iradəsinə söykənən, onun dəstəyini daim hiss edən ləyaqətli, peşəkar siyasətçi idarə edəndə dövlət daha qüdrətli, vətəndaş daha güvənli olur. Azərbaycanın çağdaş siyasi tarixində yeni mərhələnin əsasını qoymuş 2003-cü ilin 15 oktyabr seçkiləri xalqın öz taleyini hər zaman qəlbən inandığı, etibar etdiyi, sınaqdan çıxardığı siyasi qüvvəyə etibar etdiyini bir daha təsdiqləmişdir. Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə yeni meyarlar üzərində köklənmiş mütərəqqi idarəçilik ənənələrinin məhz bu sistem hüdudlarında püxtələşən, Heydər Əliyevin siyasi xəttini dönmədən davam etdirməyə qadir peşəkar, intellektli və praqmatik lider tərəfindən idarə olunması Azərbaycanın iqtisadi və geosiyasi durumundan irəli gələn tələbat olmuşdur. Məhz belə bir mərhələdə İlham Əliyev fenomeni bir tərəfdən ölkədə gedən ictimai-siyasi proseslərin məntiqi, digər tərəfdən Heydər Əliyevin siyasi kursunun varisliyi axtarışında olan cəmiyyətin sosial sifarişi kimi Azərbaycan və dünya siyasətində önə çıxmışdır.

Həmin dövrdə ölkədəki islahatların davamlılığı, ardıcıllığı, uğurla başa çatdırılması zərurəti hakimiyyət estafetinin demokratik seçkilər yolu ilə bu xətti dəstəkləyən və uğurla başa çatdırmağa qadir yeni praqmatik liderə - cənab İlham Əliyevə ötürülməsini diktə edirdi. Heydər Əliyev kimi böyük dühanın ailəsində yetkinləşən, zəngin dövlətçilik məktəbi əxz edən, müasir bilik və təcrübəyə yiyələnən bu kamil şəxsiyyət ulu öndərin layiqli siyasi varisi olmaq üçün ilk növbədə xalqın dəstəyinə güvənirdi.

Azərbaycan cəmiyyətində son nəticə həmişə illüziyaları deyil, real göstəriciləri qiymətləndirir: ictimai rəyin siyasi vədlərə deyil, konkret faktlara qiymət verməsi anlamında xalqımız kifayət qədər müdrikdir. Ulu öndərin zəngin dövlətçilik ənənələrini davam etdirmək üçün cənab İlham Əliyevin ən real şanslara malik olduğunu təsdiqləyən proseslər ictimai rəyin dəqiq seçiminin yəqinləşməsində kifayət qədər həlledici rol oynayırdı.

Ümummilli liderin siyasət məktəbində yetişmiş peşəkar diplomat kimi müasir lider imicinə malik olması İlham Əliyevin ictimai rəydə önə çıxmasını şərtləndirən başlıca məqamlar sırasında idi. ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı, Milli Olimpiya Komitəsinin prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri statusunda göstərdiyi əzmkar fəaliyyət cənab İlham Əliyevi cəmiyyətin nəzərində daha da ucaltmışdı.

*Ardı 4-cü səh.*

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



*Əvvəli 1-ci səh.*

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev keçən dövr ərzində KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul etmiş, müvafiq fərman və sərəncamlar imzalamışdır. Hazırda ölkədə KİV-in ümumi sayı 5 mini, Az.domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötmüşdür. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir. 2005-ci ildə ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır.

2008-ci ildə cənab Prezident "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında sərəncamlar imzalamışdır. İndiyə qədər Fond vasitəsilə medianın inkişafına ümumilikdə 60 milyon manat vəsait yönəldilmişdir. Bundan başqa, cənab İlham Əliyevin sərəncamlarına əsasən jurnalistlər üçün dövlət hesabına 410 mənzildən ibarət iki yaşayış binası tikilmiş və KİV nümayəndələrinin istifadəsinə verilmişdir. Hazırda 255 mənzildən ibarət üçüncü binanın tikintisi davam edir.

Prezident İlham Əliyevin hakimiyyəti illərində siyasi sferada olduğu kimi, **iqtisadi sahədə də ciddi uğurlar qazanılmışdır.** Onun rəhbərliyi ilə son 15 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkədə planlı sosialist iqtisadiyyatından **bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilmişdir.** Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlmişdir. 2004-2018-ci illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunmuşdur. Hazırda dördüncü proqramın qəbul edilməsinə hazırlıq görülür.

Ötən dövr ərzində **qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamışdır.** 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, ölkə ərazisində çoxsaylı sənaye parkı və məhəllələri, texnoparklar (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s.) yaradılmış, istehsal sahələrinin genişləndirilməsi, qeyri-neft sənayesinin ixrac imkanlarının artırılması və innovativ istehsalın inkişaf etdirilməsi istiqamətində ciddi tədbirlər görülmüşdür. Sumqayıtda alüminium, karbamid, plastik emalı zavodları, "SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen zavodları (bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur), Balaxanıda məişət tullantılarının təkrar emalı zavodu, Bakı gəmiqayırma zavodu, Gəncə, Naxçıvan və Neftçalada avtomobil zavodları, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Gəncə alüminium yarımfabrikatı, kənd təsərrüfatı texnikası zavodları və digər sənaye müəssisələri həmin illərdə istifadəyə verilərək ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

**Aqrar sektorda həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaratmışdır.** 2003-2018-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artmışdır. Ölkədə 4 iri su anbarı (Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay), 4 min kilometr suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı, 264 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılmış, 219 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

On beş il ərzində **Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8** milyard **dollardan (2004) 46** milyard **dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.** Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən həmin investisiyanın təxminən yarısı daxili mənbələrin payına düşür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş,** 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq "Cənub qaz dəhlizi"nin təməli qoyulmuşdur. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə getmiş və 2018-ci il mayın 29-da Bakıda "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə **Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür.** Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub nəqliyyat dəhlizi" layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin prezidentliyi dövründə **Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur.** 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, 2013-cü il ölkədə "İnformasiya Texnologiyaları İli" elan edilmişdir. Həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace 1", 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən "Azersky" peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - "Azerspace 2" orbitə çıxarılmışdır.

Son 15 ildə **ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir.** Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud əsaslı təmir edilmişdir. Yüzlərlə tarixi binada, muzey, teatr və kitabxanada geniş yenidənqurma işləri həyata keçirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. Ölkədə 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuşdur. Bakıda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri aparılmışdır. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. Azərbaycanda 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Onlardan altısı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalq hava limanı statusu almışdır. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

2003-2018-ci illər ərzində **ölkədə ümumi generasiya gücü 2500 MVt olan 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş və Azərbaycan regionda elektrik enerjisi ixracatçısına çevrilmişdir.** İlin sonuna qədər 400 meqavat gücündə daha bir elektrik stansiyası da ("Şimal-2") istifadəyə veriləcəkdir. **Bölgələrdə qazlaşdırma sürətlə aparılmış və ölkə üzrə təbii qaz təchizatı 51 faizdən 95 faizə yüksəlmişdir. Nəhəng Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi icra edilmiş, Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu inşa olunmuş, regionlarda çoxsaylı subartezian quyuları qazılmış, çaylar boyu yüzlərlə modul tipli kiçik sutəmizləyici qurğular istifadəyə verilmiş, əhalinin fasiləsiz içməli su ilə təminatı yaxşılaşdırılmışdır.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə **əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir.** Bu məqsədlə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinmiş, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilmişdir. 15 il ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilmişdir.

Cənab İlham Əliyev prezidentliyi dövründə **ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparmışdır.** Onun müvafiq fərman və sərəncamı ilə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən **"ASAN xidmət"** mərkəzləri yaradılmışdır. Bu mərkəzlərə 2013-2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olmuş, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşmışdır. Dünyada Azərbaycanın brendi kimi tanınmış "ASAN xidmət" modeli artıq başqa ölkələrdə də tətbiq edilir. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"ni (DOST) yaratmışdır.

**Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilmişdir. İlin sonuna qədər həmin kateqoriyadan olan daha 500 nəfərin yeni mənzillərlə təmin olunacağı nəzərdə tutulmuşdur.** Azərbaycan Prezidenti bu məqsədlə Prezidentin Ehtiyat Fondundan 20 milyon manat vəsait ayırmışdır.

2003-2018-ci illərdə **məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülmüş, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edilmiş, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılmışdır.** 2016-cı ilin aprel ayında təhlükəsiz yaşayışı təmin olunmuş Cocuq Mərcanlı kəndi (Cəbrayıl rayonu) qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsində (Tərtər rayonu) 1170 ailə üçün yeni şəhərcik salınmışdır. Bu ilin doqquz ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunmuşdur. İlin sonuna qədər daha 2800 ailənin ev və ya mənzillərlə təmin edilməsi nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, habelə Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük xidmətlərinə görə cənab İlham Əliyev 2015-ci ildə BMT-nin "Cənub-Cənub" mükafatı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.** 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyev **Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə etmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2003-2018-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur.** BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrdə zəbt olunmuş Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması, orada yanğınlar törədilməsi faktları pislənilmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. AŞPA-nın (1416 saylı "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə", 2005), Avropa Parlamentinin ("Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb", 2010) qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017) və Avropa İttifaqı - Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018), Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin, İƏT-in XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, ECO-nun 13-cü sammitinin (İslamabad, 2017) yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Prezident İlham Əliyevin **milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir.** 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş və müvafiq sənədlər imzalamışdır.

Prezident İlham Əliyev **milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasını və inkişafını təmin etmişdir. 2003-2018-ci illər ərzində ölkədə 220-dən çox məscid, kilsə, sinaqoq tikilmiş və ya bərpa olunmuşdur.** Xüsusi dini-mənəvi və tarixi-mədəni əhəmiyyət kəsb edən Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir, Əjdərbəy, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində təmir və yenidənqurma işləri aparılmışdır. Şamaxı Cümə məscidi və Gəncədə "İmamzadə" dini-mədəniyyət abidəsi əsaslı bərpa edilmiş, Bakıda Qafqazın ən böyük məscidi olan Heydər Məscidi (2014), Hacı Cavad Məscidi (2018) və dağ yəhudiləri üçün sinaqoq (2011) tikilərək dindarların istifadəsinə verilmişdir. Hazırda ölkə ərazisində 2250 məscid, 14 kilsə, 7 sinaqoq sərbəst fəaliyyət göstərir.

Prezident İlham Əliyevin sərəncamları ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış (2014), 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Azərbaycan sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə evsahibliyi etmiş, bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. 2008-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına İslam ölkələri mədəniyyət nazirləri də dəvət edilmişdir. Həmin forumda Azərbaycan Prezidenti sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı naminə "Bakı Prosesi" təşəbbüsü ilə çıxış etmişdir. Sonrakı illərdə bu çərçivədə çoxsaylı beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev **gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir.** Eyni zamanda, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc xarici ölkələrin qabaqcıl tədris ocaqlarında təhsil almağa göndərilmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmış, 2013-cü ildə gənclər üçün Prezident mükafatı təsis edilmişdir.

Prezident İlham Əliyevin qayğısı sayəsində **ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi getmiş, böyük uğurlar əldə edilmişdir.** Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən-ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qızıl, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasında 6 medal (1 qızıl, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasında 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunlarında isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci, müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə **Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına evsahibliyi etmişdir.** 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. **2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında** isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

**Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olmuşdur.** Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, **Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır (2017). Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.**

Əslində, Azərbaycana gələn hər bir kəs mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasa belə, təkcə paytaxt Bakı şəhərinə nəzər salmaqla son 15 ildə böyük bir sıçrayışın baş verdiyinə əmin ola bilər. **Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasına əsasən 2003-2018-ci illərdə həyata keçirilən abadlıq və quruculuq işləri sayəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, regionun biznes və mədəniyyət mərkəzinə, cəlbedici turizm və istirahət məkanına çevrilmişdir.** Şəhərin tarixi görkəmi müasir və zövqlü tikililərlə tamamlanmış, Bakının yeni simvol və rəmzləri olan Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, "Alov qüllələri", "Baku Crystal Hall" və digər inşaat kompleksləri dünyanın memarlıq inciləri sırasına daxil olmuşdur. Şəhərin ictimai-mədəni və nəqliyyat-təsərrüfat infrastrukturu müasir tələblərə uyğunlaşdırılmış, yeni küçə, körpü və yol ötürücüləri tikilmiş, yaşıllıq və parklar salınmış, ekoloji şərait yaxşılaşdırılmış, dənizkənarı bulvar 3,5 kilometrdən 16 kilometrə qədər uzadılmışdır. Paytaxt ərazisindən çıxarılan sənaye müəssisələrinin yerində modern tipli şəhərsalma layihələri reallaşdırılmışdır.

**Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır.**

**Əli HƏSƏNOV,**
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, professor*



# Möhtəşəm zəfər salnaməsi

## Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



Əvvəli 1-ci səh.

O gündən başlanan 70 illik laübalı zaman sovet tarixi kimi yox, elə 28 Mayın işığında cümhuriyyətimizin tarixi kimi yazılsaydı...

30-cu illərin repressiyalarında ən işıqlı insanlarımızın ömrünə nöqtə qoyan uzun gecələr heç düşməsəydi...

Yaxud 1941-ci ilin 22 iyununda Hitler ordusu SSRİ-yə qarşı hücuma keçməsəydi... Yüz minlərlə insanımız bu davada həyatını itirməsəydi...

Xalqımıza qarşı 20 Yanvar qətliamı, 26 fevral Xocalı soyqırımı törədilməsəydi, təqvimdə torpaqlarımızın işğalı günü kimi qəmli notlarla, ağrı-acılarımızla simvollaşan günlər tamam başqa əlamətdar hadisələrlə xatırlansaydı...

Azərbaycanın taleyini təsadüfi əllərə keçirən günlərin hadisələri baş verməsəydi...

Keşkə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı 1993-cü ilin 15 iyununda yox, daha tez - ermənilərin torpaqlarımıza qarşı separatçı hərəkətlərə başladıqları ilk günlərdən, Dağlıq Qarabağ münaqişəsinin alovlanmasından, Şuşanın, Laçının, başqa rayonlarımızın işğalından əvvəl baş tutsaydı...

❖ ❖ ❖

Bunlar cümlə olaraq qrammatik baxımdan nə qədər asan yazılsa da, əfsus ki, zaman felin şərt şəklində danışmağı sevmir!..

Bunların hər biri tarixdir...

Onun axarını geri çevirmək mümkün deyil. Təsəllimizsə odur ki, bu tarixin içində taleyimizə əzablar yazan, hansısa yanlışlıqların ağrılarını yaşadan günlər qədər xalq olaraq bizə böyük nailiyyətlər qazandırmış, həyatımızda yeni səhifələr açmış yaxşı günlərimiz də var.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq mövcudluğunun hər günü bir nailiyyətdir...

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanın rəhbəri seçilməsi, 1991-ci ilin 18 oktyabrında ölkəmizin öz dövlət müstəqilliyinə qovuşması, 1993-cü ilin 15 iyununda ulu öndərin siyasi hakimiyyətə qayıdışı, dünyanın aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalandığı 1994-cü ilin 20 sentyabr günü...

Bunların hər biri tale günlərimizdir...

Taleyimizi, tariximizi yaxşıya doğru dəyişən anlardır...

Əsrə bərabər günlərdir...

❖ ❖ ❖

Tarixdə yanlış günlərimiz, bəli, olub. Amma düzgün qərarlarla, dürüst seçimlərlə xatırlanan, şanslı, doğru günlərimiz də çoxdur...

Doğrularımız yanlışlarımızdan başlanıb əslində...

Yanlışlar bizə ibrət dərsi verib, tarixi yanlışlarımızdan yola çıxaraq düzgün səmtlə tarixi doğrularımıza yetişə bilmişik...

Zaman bütün yanlışları, doğruları, faciə və uğurları, yaxşı və pis günləri ilə birgə bizi yetişdirib, yolumuzu aydınladıb, pisi yaxşıdan, doğrunu yanlışdan ayırmağı öyrənmişik...

Və doğru qərarlarımız Azərbaycanı indiki - milli dövlətçilik tarixinin ən qüdrətli çağlarına yetirib...

Həyatımızın ən mükəmməl həqiqəti budur. Müasir Azərbaycan dövlətidir...

❖ ❖ ❖

Hərdən düşünürəm ki, birdən 1993-cü ilin o çətin və təlatümlü günlərində Azərbaycan xalqı müstəqillik tariximizin ilk ən doğru qərarını verməsəydi...

Heydər Əliyevin qayıdışı mümkün olmasaydı...

Yaxud Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş qüvvələrin "Əsrin müqaviləsi"nin imzalanmasından cəmi bir neçə gün sonra daha da fəallaşdığı, siyasi qətllərin törədildiyi, 1994-cü ilin 3-4 oktyabrında dövlət çevrilişinə cəhd edildiyi o məşum günlər...

Ulu öndərin oktyabrın 4-də televiziyadan xalqa bircə çağırışı ilə on minlərlə vətəndaşımızın Prezident Administrasiyasının qarşısına axın edib Heydər Əliyevə dəstək olduğu, milli dövlətçiliyimizi el gücünün sarsılmazlığı ilə qoruduğu o gecə hadisələr tamam başqa cür yaşansaydı, milli istiqlalımıza uzanmış qara əllər öz məqsədinə çatsaydı, Azərbaycanın taleyi indi kim bilir necə olardı...

❖ ❖ ❖

Dövlətçilik tariximizdə bir əlamətdar gün də var ki, həmin günlə tariximizdə tamam yeni bir səhifə açılır. Bu gün, Azərbaycan həyatında yeni başlanğıcdır. Cəmiyyətimizin çətin sınaqlar, məhrumiyyətlər və Heydər Əliyev müdrikliyinin qazandırdığı ilk mühüm dövlətçilik uğurları ilə zəngin böyük bir dönəmi başa vurub, daha böyük milli hədəflərinə doğru istiqamətləndiyi möhtəşəm andır...

Bu gün həm də cəmiyyətdə dövlətçilik təfəkkürünün xaosa, qanunçuluğun anarxiyaya, siyasi mədəniyyətin qaragüruha, inkişaf və tərəqqi meyillərinin dağıdıcı ehtiraslara qalib gəldiyi gündür...

Həmin gün xalqın onun üçün müstəqil, hüquqi dövlət qurmuş, bu dövləti zamanın sərt zərbələrindən qorumuş, onun hər bir vətəndaşının hürriyyətini, hüquq və azadlıqlarını təmin etmiş öz ümummilli liderinə inamının daha bir təcəssümü anıdır...

*"...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin İ müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"...*

15 il əvvəl, 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı bu tarixi müraciət, əslində, təkcə ulu öndərin deyil, bütövlükdə Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin ifadəsi kimi ortaya çıxmışdı.

O dövrdəki proseslər - ölkədə iqtisadi, siyasi, hüquqi islahatların davamlılığı, ardıcıllığı Heydər Əliyev siyasi kursunun dönmədən davam etdirilməsini, hakimiyyət estafetinin xalqın iradəsi ilə bu xətti dəstəkləyən və uğurla başa çatdırmağa qadir yeni Liderə - cənab İlham Əliyevə ötürülməsini tarixi zərurət kimi diktə edirdi...

Azərbaycan insanı ölkənin, xalqın gələcəyinə görə məsuliyyəti Heydər Əliyev məktəbində yetişmiş liderin öz üzərinə götürməsini arzulayırdı...

Ölkə vətəndaşlarının mütləq əksəriyyəti hakimiyyət sükanı arxasında məhz sınanmış komanda və lideri görməyə can atırdı...

Sadəcə, hər zaman olduğu kimi yenə də ümummilli liderin sözünü gözləyirdi...

Ən doğru olanı ondan duymaq istəyirdi...

Və ulu öndər insanlarımızın gözlədiyi bu sözü dedi...

Seçki ərəfəsindəki tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı, dürüst lideri nişan verdi...

Və Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi öz rəhbəri seçərək milli dövlətçilik tarixinin daha bir ən doğru qərarını verdi.

15 oktyabr gününü tale gününə, əsrə bərabər gününə çevirdi!..

Respublikanın ictimai-siyasi, iqtisadi və mənəvi həyatında yeni intibah mərhələsinin əsasını qoymuş 2003-cü ilin 15 oktyabr seçkisi xalqın strateji seçiminin alternativsizliyini sübuta yetirdi!..

❖ ❖ ❖

Azərbaycan Prezidenti seçilərkən cənab İlham Əliyevin cəmi 42 yaşı vardı və o, bu yaşda dünyanın ən gənc dövlət başçılarından sayılırdı.

O gündən düz 15 il keçib...

Və əslində lider böhranının yaşandığı müasir dünyamızda İlham Əliyev öz şəxsi nümunəsi ilə yeni dövrün əsl liderinin, kamil dövlət adamının mükəmməl obrazını yaradıb...

O, yeni əsrin yeni lideri olaraq Azərbaycanı mətinliklə, inamla irəli aparır.

İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərin hər günü bu dövlətə, bu cəmiyyətə qazandırdığı nailiyyətlərlə, mahiyyətcə əsrə bərabərdir...

Çünki Azərbaycanın cəmi 15 il ərzində əldə etdiyi nəticələr bir ilin, iki ilin içində qazanılası nailiyyətlər deyil. Bir çox ölkələr bu nəticələrə gəlib çıxmaqdan ötrü əsrlərini sərf edib...

❖ ❖ ❖

Cənab İlham Əliyevin 15 illik hakimiyyət dövrü Azərbaycanın dinamik inkişaf, sürətli modernləşmə mənzərəsidir.

Dövlətimizin rəhbəri kifayət qədər gərgin və mürəkkəb coğrafiyada, geopolitik güclərin maraqlarının toqquşma nöqtəsində yerləşən, müstəqilliyini yenicə əldə etmiş kiçik bir ölkəni öz qətiyyətinin, diplomatiyasının gücü ilə bütün dünyada böyük nüfuz və söz sahibinə çevirə bilib.

Onun dünyanın ən mötəbər tribunalarında, - BMT-nin, NATO-nun, ATƏT-in xitabət kürsülərindəki inamlı, cəsarətli, məntiqi çıxışları hər zaman dünyanın diqqətini cəlb edir...

Beynəlxalq güclər cənab İlham Əliyevin mövqeyi ilə hesablaşırlar. Fərqindədirlər ki, hər hansısa təzyiq üsulları ilə onu Azərbaycanın milli maraqlarından çəkindirmək əsla mümkün deyil. 15 illik tarixi təcrübə bunu təkrar-təkrar sübuta yetirib.

İlham Əliyev ölkəmizin milli mənafelərini, hər zaman, hər yerdə, bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür...

Bütün məsələlərlə bağlı Azərbaycan Prezidentinin öz fikri, öz sözü, öz mövqeyi var!

Bu, Azərbaycan xalqının fikridir, sözüdür, mövqeyidir!

Bütün qərarlarında o, xalqın rəyini ifadə edir, vətəndaşlarımızın dəstəyinə güvənir...

Qlobal böhranlardan çıxış yolları axtarışında Azərbaycan Prezidentinin şəxsində təcrübəli dövlət adamının, qlobal trendləri çox gözəl bilən peşəkar dövlət idarəçisinin rəylərinə, təşəbbüslərinə və onun şəxsində ümumən xalqımızın maraqlarına hörmətlə yanaşılır.

Bu 15 ildə cənab İlham Əliyevin düşünülmüş islahatları, müdrik qərarları həyatımıza yeni nəfəs gətirib, cəmiyyətin inkişafında yeni səhifələr açıb, Azərbaycanı dünyanın öncül ölkələrindən birinə çevirib!..

"Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq"...

Bu, Azərbaycan Prezidentinin milli hədəfləridir...

Və o, Azərbaycanı addım-addım bu hədəflərə aparır...

Müstəqilliyimizin dayaqlarını möhkəmləndirir...

Xarici siyasət kursunda tətbiq etdiyi tarazlaşdırılmış konsepsiya ilə Azərbaycanın beynəlxalq nüfuzunu ildən-ilə gücləndirir...

Ölkəmizin dostlarının sayı çoxalır...

Bizimlə tərəfdaşlıq etmək, Azərbaycanın yaratdığı geniş imkanlardan barınmaq istəyən ölkələrin sırasına yeniləri əlavə olunur. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi rəğbət doğurur.

Azərbaycan bu illər ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi əfsanələri reallığa çevirməyə müyəssər oldu. Azərbaycan qlobal enerji-kommunikasiya layihələri ilə Asiya və Avropanı bir-birinə qovuşdurdu. Regionun gələcək inkişafına geniş qapı açdı...

Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçuya, Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrildi. Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başlanıldı.

XXI əsrin qlobal enerji layihəsi adlandırılan "Cənub qaz dəhlizi"nin təməli qoyuldu və bu layihələr hazırda uğurla icra edilməkdədir.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin müddətinin ötən il 2050-ci ilə qədər uzadılması da Azərbaycanın bu günü və gələcəyinə olan inamın təntənəsidir.

Bir neçə il əvvəl isə Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçildi. Müstəqillik tariximizin ən böyük nailiyyətlərindən olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür.

Bu məqamda türk dünyasının fəxri Çingiz Aytmatovun ruhunu hörmətlə anaraq, onun dəyərli bir fikrini xatırlayıram: "İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonudur".

Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur...

❖ ❖ ❖

İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası erməni təbliğatının illərlə yaratdığı mifi havaya uçurdu. Dünya Dağlıq Qarabağ probleminin mahiyyətinə varmağa başladı, Azərbaycan haqqında həqiqətlərə diqqət kəsildi. Beləliklə, beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişməyə başladı. Bu siyasət ümumən bəşəriyyətə qarşı Xocalı soyqırımı kimi dəhşətli bir cinayəti törətmiş Ermənistanın cəllad rəhbərliyinə Yer üzündəki vicdanlı insanların lənətini qazandırdı.

İlham Əliyev Azərbaycanda dünyanın 50 ən güclü ordusundan birini qurdu. Və bu ordu işğalçıların təxribatlarına qarşı əks-hücum həmlələri ilə düşmənə öz gücünü layiqincə göstərdi.

Azərbaycan Ordusunun 2016-cı ilin aprelində işğalçı Ermənistana verdiyi dərsin ağrısı o qədər acı oldu ki, bu ölkənin vətəndaşları nəhayət ayılıb onları illərdir zillətdə saxlayan, yalan miflərlə başlarını qatıb özlərinə xaniman quran cəlladları hakimiyyətdən devirdilər. Bu adamları siyasi meyit kimi tarixin arxivinə göndərdilər.

Ermənistan cəmiyyəti nəhayət anlamağa başladı ki, torpaqlarımızın 20 faizini işğal altında saxlasalar da, bu münaqişədə hər gün uduzan, öz gələcəklərini, inkişaf imkanlarını itirən və bir dövlət olaraq bütün mövcudluqları ilə başqa bir ölkənin hərbi-mənəvi işğalı altına düşən tərəf məhz onlar özləridir.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycanı fərqli mədəniyyətlərin dialoqu məkanına, tolerantlıq, multikulturalizm ünvanına çevirdi. Milli-mənəvi dəyərlərə, müxtəlif dinlərə və sivilizasiyalara hörmət ruhu ilə parlaq bir nümunə yaratdı. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl örnək kimi qəbul olunmağa başladı.

Prezident İlham Əliyevin bu istiqamətlərdə həyata keçirdiyi konsepsiyalar, ölkəmizdə təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı istiqamətində gördüyü tədbirlər Heydər Əliyev Fondunun layihələri ilə daha da dolğunlaşdı.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü təşəbbüslər bu siyasətə dəyərli töhfələr verdi.

Azərbaycan "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, 42-ci Dünya Şahmat Olimpiadası, Formula-1 Avropa qran-prisi kimi tarixi tədbirlərə evsahibliyi edən ölkə oldu.

İlham Əliyev Azərbaycanı idman ölkəsinə çevirdi. Bütün ölkə ərazisində Olimpiya mərkəzləri, müasir idman infrastrukturu yaradıldı, idman, sağlam həyat tərzi insanlarımız arasında xoş bir meyil kimi populyarlaşdı.

❖ ❖ ❖

Onun üçün dünyanın ən qiymətli sərvəti insandır, hər şey insanın mütərəqqi arzularının gerçəkləşməsinə, insan xoşbəxtliyinə xidmət etməlidir.

İlham Əliyevin yürütdüyü siyasətin əsas məzmunu da məhz insandır...

Bu siyasətin amalı qurub-yaratmaq, vətəndaşlar üçün xoş həyat şərtləri təmin etmək, ümumilikdə isə gələcək nəsillərdən ötrü daha gözəl bir dünyanın qurulması naminə bəşəri ideyaları gündəmə gətirərək onların icrasına çalışmaqdır.

"Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam"...

Azərbaycan Respublikasının Prezidenti kimi ilk andiçmə mərasimində cənab İlham Əliyevin ölkə vətəndaşları qarşısındakı əsas sözü bu olmuşdu. O, 15 ilin hər günündə bu sözünü tutdu...

Nəinki hər bir vətəndaşımızın, özünü Azərbaycana bağlı sanan hər kəsin ümid yerinə çevrildi...

İnsanlarımızın təhlükəsizliyi, firavan həyatı, inkişafı məramı ilə gördüyü işlərdən, atdığı ardıcıl addımlardan cəmiyyətimizin hər bir üzvü bəhrələnə bildi və bəhrələnməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Azərbaycanın ən ucqar kəndlərinə abad yollar, qaz, içməli su xətləri çəkildi. Sosial infrastruktur sistemi yeniləndi. Vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Bu gün Azərbaycanın regionları bütün zəruri şəraitlə təmin olunub və Avropanın şəhər və kəndlərindən əsla geri qalmır.

Cənab İlham Əliyevin regionlara mütəmadi səfərləri, ictimaiyyətlə görüşləri, yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışlarında şəxsən iştirakı verilmiş tapşırıqların icrasına vəziyyətin nəzarətdə saxlanmasına, insanların rəy və təkliflərinin öyrənilməsinə, onları narahat edən məqamların üzə çıxarılmasına, ictimai nəzarətin gücləndirilməsinə çox böyük kömək göstərir.

Prezidentin çox böyük rəğbətlə qarşılanan təşəbbüslərindən biri də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə keçirdikləri qəbullardır. Nazirlər, komitə sədrləri və digər dövlət strukturlarının rəhbərləri yerlərdə əhali ilə görüşür, sakinlərin müraciət və təkliflərini dinləyir, vətəndaşların qayğılarına həssaslıqla yanaşmağa, onların problemlərinin həllinə kömək göstərməyə çalışırlar.

Zatən dövlət rəhbərimizin məmurlar qarşısında qoyduğu əsas tələblərdən biri də budur. Vətəndaşlara layiqincə xidmət göstərməkdir. Onların hökumətə göstərdiyi yüksək etimada layiq çalışmaqdır.

❖ ❖ ❖

İlham Əliyev insanların arzularından gəlmiş liderdir...

Onun səsləndirdiyi bütün bəyanatlar, verdiyi hər bir söz insanlarımızın arzularını nəzərdə tutur, real əmələ əsaslanır.

Azərbaycan Prezidenti müasir dünyamızda sözü ilə əməli üst-üstə düşən, publikanın diqqətini çəkməyə hesablanmış qeyri-real, populist fikirləri əsla özünə rəva bilməyən, amma dilə gətirdiyi sözləri də əmələ çevirməyi bacaran çox az sayda liderlərdəndir!

Dövlət rəhbərimiz məhz real əməlləri, düşünülmüş və uzaqgörən siyasəti nəticəsində inkişafın Azərbaycan modelini formalaşdırdı. Ölkə iqtisadiyyatının dinamik, ardıcıl inkişafını təmin etdi.

Bu, hamının yaxşı yadındadır. Cənab İlham Əliyev ilk dəfə prezident seçilərkən deyəndə ki, yaxın illərdə ölkədə 600 min yeni iş yeri açılacaq, çoxları bunu xəyal zənn edirdi. Amma belələri unudurdular ki, bu proqnoz qlobal siyasət, diplomatiya, idarəetmə qədər iş həyatının incəliklərini də dəqiq bilən, ölkənin malik olduğu inkişaf resurslarını real qiymətləndirməyi bacaran, mövcud potensialı və ondan istifadə yollarını aydın görən səriştəli menecerin peşəkar təhlillərinə, proqnozlarına, vizyonuna əsaslanır...

Gün gəldi, bir zaman xəyal hesab edilənlərin hamısı reallığa çevrildi...

Ötən 15 ildə Azərbaycanda milyondan artıq iş yeri yaradıldı...

Yoxsulluq həddi 50 faizdən 5 faizə düşdü...

Ölkədə güclü sahibkarlar sinfi, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edən orta təbəqə formalaşdı...

İlham Əliyevin yaratdığı inkişaf mühiti insanlarımızın sosiallaşmasına şərait yaratdı. Cəmiyyət üzvləri başlıca məişət qayğılarını həll edib, birgəyaşayış qaydalarına daha yüksək səviyyədə riayət, mənəvi tərəqqi, qlobal inkişafa açılmaq barədə düşünməyə başladılar.

Bu 15 il insanların yaxşı mənada maraqlarını, qayğılarını, problemlərini dəyişdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində gündəlik ruzusinin, bir parça çörəyinin sıxıntısını çəkən həmvətənlərimiz indi daha keyfiyyətli təhsil, səhiyyə xidmətləri almaq, daha çox ölkələrə səyahət edə bilmək, daha səviyyəli yerlərdə istirahət və başqa bu kimi qayğıları aktuallaşdırmağa başladılar.

Bütün bunlar, ilk baxışda, bəlkə də heç fərqinə varmadığımız inkişaf trendləridir. Bütün qabaqcıl cəmiyyətlər inkişafa məhz bu cür çatır. Cəmiyyətin sosial-iqtisadi təkamülü bu minvalla baş verir...

❖ ❖ ❖

Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlar kursu həyatımıza şəffaflıq gətirdi, bürokratik maneələri aradan qaldırdı. "Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz", - deyən cənab İlham Əliyev Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini - "ASAN"-ı yaratmaqla eyni inkişaf yolunu keçən bir çox ölkələr, cəmiyyətlər üçün parlaq örnək formalaşdırdı.

Bu təcrübənin dövlət strukturlarının fəaliyyətini təkmilləşdirməsi, şəffaflığı təmin etməsi, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələri aradan qaldırması öz yerində...

"ASAN xidmət" təcrübəsi Azərbaycanda həm də yeni vətəndaş nəsli formalaşdırdı...

Xidmət ofislərində dövlətin təmiz, şəffaf, səliqəli, gülər üzünü görən, onun həssas, çevik, peşəkar, qayğıkeş münasibətindən qəlbi isinən bu vətəndaş nəslinin ictimai davranışları, belə bir dövlətə mənsubluq duyğusunun qüruru, öz dövləti qarşısında daşıdığı məsuliyyət hissi də indi tamam başqadır.

Təfəkkürlərdə baş verən bu dəyişiklik bir cəmiyyət üçün onu yüzillərlə irəli aparan çox möhtəşəm uğurdur...

Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı vicdanlı, yorulmaq bilməyən, zəhmətkeş, öz yüksək mənəvi borcuna sadiq bir insanın timsalında bəşəriyyətin taleyinə nəzər salır. Müasir dövrün problemlərini, dünyanın sabahını canlandırmağa çalışır. Və Yer üzünün də, onun bitib-tükənməyən problemlərinin də fövqündən bəşəriyyətə belə bir ismarıc göndərir ki, dünyada əmin-amanlığın, xeyirxahlığın və humanizmin təntənəsi ən böyük qələbədir...

İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti də bu həqiqətin qalibidir...

Və təkcə Azərbaycan xalqının, dövlətinin deyil, Yer üzündə eyni ali dəyərlərə can atan bütün insanların bu qələbəsini formalaşdırmış 15 illik zaman, əslində, elə əsrlərə bərabərdir...

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı, yazıçı-publisist***



2003
2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi





# Sabitlik, dinamik inkişaf və mütərəqqi islahatlar strategiyası

*Əvvəli 1-ci səh.*

Moskva Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsil alması, bir neçə xarici dildə sərbəst danışmaq vərdişinə yiyənməsi, elitar siyasi dairələrlə sıx təmasları, bu və ya digər problem ətrafında müzakirələrin fəal iştirakçısı kimi yetişməsi, çağdaş Qərb liderlərinə xas imici İlham Əliyev fenomeninin cəmiyyət üçün cəlbediciliyini artıran əsas amillərdən idi.

Gənc liderin xarici siyasətin bütün sahələrində, o cümlədən cəmiyyət həyatı üçün mühüm əhəmiyyətə malik digər sferalarda üzərinə götürdüyü missiyanı uğurla həyata keçirməsi, siyasi proseslərə realist yanaşma tərzi, analitik təfəkkürə əsaslanan çıxışları ölkə hüdudlarından kənarda da böyük maraq doğururdu. Bütün bunların fonunda cənab İlham Əliyevin dövlətə rəhbərlik missiyasını üzərinə götürməsi obyektiv reallığın diktə etdiyi zərurət idi.

2003-cü ilin 4 avqustunda cənab İlham Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin yekdil razılığı ilə Baş nazir vəzifəsinə təyin edilməsi xalqın ona göstərdiyi böyük etimadın əyani təcəssümünə çevrildi. Baş nazir kimi hökumət üzvləri ilə keçirdiyi ilk iclasda cənab İlham Əliyev ilk növbədə insan amilini önə çəkərək bildirirdi ki, vətəndaşa həssas münasibət ölkədə həyata keçirilən siyasətin ən vacib istiqaməti olmalıdır. Cənab İlham Əliyev hökumət başçısı kimi 3 aylıq fəaliyyəti müddətində bu prinsipə sadiq qalaraq yüksək idarəçilik keyfiyyətlərinə malik olduğunu bir daha təsdiqlədi.

İctimai maraqlardan çıxış edən ulu öndər Heydər Əliyev xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində məhz bu meyarları əsas götürərək cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirir, respublikanın gələcək taleyi baxımından vacib olan bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına inamını ifadə edirdi. Müraciətin əvvəlində Azərbaycana rəhbərliyinin 34, müstəqil Azərbaycan Respublikasına rəhbərliyinin isə 10 ilinin tamam olduğunu nəzərə çatdıran ümummilli lider bu dövrün bütün varlığı qədər sevdiyi xalqına, dövlətinə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmətdən ibarət olduğunu vurğulayırdı. Böyük öndər müraciətində əlavə edirdi ki, müstəqil dövlətimiz dünya ölkələrinin ən qabaqcıl təcrübəsindən və dəyərlərindən bəhrələnərək inkişaf edir.

Bütün bunların heç də asan başa gəlmədiyi müraciətdə xüsusi vurğulanır, ötən dövrdə həm daxildən, həm də xaricdən qaynaqlanan çoxsaylı təhlükəli irticanın, təxribatın və digər antiazərbaycan aksiyalarının qarşısının alınması, çətinliklərin dəf edilməsi faktları nəzərə çatdırılırdı. Ulu öndər tarixi müraciətinin sonunda xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı da göstərirdi: *"Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin İ müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Müdrik və qədirbilən xalqımızın Heydər Əliyev dühasına sonsuz sevgisi, cənab İlham Əliyevin şəxsiyyətinə və siyasi liderlik keyfiyyətlərinə dərin inamı 2003-cü ilin prezident seçkilərində qəti sözünü dedi. Xalqın xeyir-duası ilə prezident seçilən cənab İlham Əliyevin oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində *"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm"* deməsi onun ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə necə sadiq olduğunu bir daha nümayiş etdirirdi. Bu mərasimdə dövlət başçısı Azərbaycanın mövcud vəziyyətini və gələcək inkişaf perspektivlərini dəqiq xarakterizə etməklə yanaşı, növbəti beş il üçün özünün əsas fəaliyyət prioritetlərini açıqlamışdı: güclü dövlət, sabitliyə təminat, hər kəs üçün sosial rifah!

Statusundan, ictimai mövqeyindən asılı olmayaraq, hər bir insanın hansı ideyanın daşıyıcısı, hansı əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada cənab İlham Əliyevin ötən 15 illik prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən dövlət başçısı ötən dövrdəki çoxşaxəli fəaliyyəti ilə bu nəcib niyyətini bütünlüklə doğrultmuş, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi bütün vədlərə sadiqliyini sübut etmişdir.

Ötən dövrün reallıqları deməyə əsas verir ki, cənab İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına saldığı milli inkişaf modeli həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqəti çəkir.

2003-cü ilin 15 oktyabr seçkilərindən sonrakı beşilliyin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi inanılmaz nəticələrlə qürur duyan orta statistik azərbaycanlının "Niyə məhz İlham Əliyevə səs verməliyik" sualına cavabı da qəti və birmənalı olmuşdur: 2008-ci ilin 15 oktyabr, 2013-cü ilin 9 oktyabr və nəhayət, 2018-ci ilin 11 aprel seçkilərində də cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkədəki möhkəm ictimai-siyasi sabitliklə, dinamik iqtisadi inkişafla, demokratikləşmə xəttinin dönməzliyi ilə şərtlənmişdir.

Əsl siyasətçi mümkün olmayanı reallaşdırmaq qabiliyyəti ilə seçilir. Vəd vermək mümkündür, lakin onu reallaşdırmamaq ən cəlbedici ideyaları da insanların gözündən salmaq demək olar. Bu mənada cənab İlham Əliyev ötən illərdə hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü lider olduğunu təsdiqləmişdir. Dövlət başçısının müdrik rəhbərliyi ilə cəmi 15 ildə həyata keçirilən islahatların - miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində reallaşdırılması mümkündür. Fəqət öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan bu dövrdə fantastik görünə biləcək sürətli inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Ötən 15 ilin bəzi mühüm yenilikləri fonunda bunu aydın görmək mümkündür. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi Ərzurum, TANAP qaz kəmərləri istifadəyə verilmiş, "Ümid", "Abşeron" kimi perspektivli qaz yataqları kəşf olunmuş, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti açılmış, respublikamız orbitə 3 peyk buraxmış, ölkə əhəmiyyətli yol-nəqliyyat sistemi, infrastruktur müasirləşdirilmişdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızın bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir.

Dövlət başçısı keyfiyyətcə yeni mərhələdə qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirərək, ilk növbədə milli iqtisadiyyatda kəmiyyət dəyişikliklərinin keyfiyyət müstəvisinə keçirilməsini təmin etmiş, respublikamız 2009-cu ildə MDB məkanında ilk dövlət olaraq iqtisadi sahədə keçid dövrünü başa vurmuşdur. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bunun nəticəsidir ki, ötən 15 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, büdcə gəlirləri 10 dəfədən çox artmış, sosial-iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.

İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. Ötən 15 ildə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və Prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir. Artıq bir neçə ildir ki, bu cür hesabatlar həm də konkret dövr ərzində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, müstəqil dövlətimizin əldə etdiyi uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir.

Cənab İlham Əliyevin qazandığı uğurların bir mühüm səbəbi də var: dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla, hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. Son illlər bu məqsədlə cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər - ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hətta sovet dövründə də mavi yanacaq üzü görməyən Yardımlıya, Lerikə qaz çəkilmiş, Qubanın ucqar dağ kəndi Xınalığa yol çəkilmiş, daha bir fantastik layihənin - Quba-Şamaxı yolunun inşasına başlanılmışdır. Bütün bunlar regionlarda mənəvi abhavanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırır.

Ötən 15 ildə vəzifəli şəxslərə etimadı onların xalqa xidmətinə nəzərən müəyyənləşdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev eyni zamanda dövlət-vətəndaş münasibətlərindəki ziddiyyətləri, psixoloji səddi aradan götürməyi bacarmışdır. Müntəzəm olaraq yerlərdə sıravi vətənlaşlarla görüşmüş, onlarla səmimi söhbət edərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul etmişdir. Cənab İlham Əliyevin xarakter etibarilə sadə və səmimi, praktik siyasətçi olması onun sıravi vətəndaşlarla təmaslarında daha qabarıq şəkildə üzə çıxmışdır.

Hər bir dövlətin demokratik inkişafının əsas şərtlərindən biri də dövrün tələblərinə cavab verən kadr potensialının formalaşdırılması, çevik və işlək mexanizmlər üzərində dövlət idarəçiliyi sisteminin yaradılmasıdır. Şübhəsiz, sosial modernləşmə olmadan, ölkənin məmur və idarəçi elitasını gəncləşdirmədən, həmin elitanı texnokratlar, bu və ya digər fəaliyyət sahəsində uğur rəmzinə çevrilmiş, müvafiq praktik iş təcrübəsinə malik insanlar hesabına genişləndirmədən bu məqsədə çatmaq mümkün deyildir. Bu və digər mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycanın dövlət siyasətinin strateji hədəflərindəndir. Ölkədə və regionda, ümumilikdə qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından, dövlət başçısı komandasının bu çağırışlara hazır olmasını vacib sayır.

Cənab İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi, 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını təmin etmək və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir. Eyni zamanda son prezident seçkilərindən dərhal sonra dövlət başçısının həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gəncləri irəli çəkməsi ölkədə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək niyyətindən irəli gəlir. Hazırkı məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir.

Son prezident seçkilərində xalqımızın böyük dəstəyi ilə növbəti dəfə inamlı qələbə qazanmış cənab İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimində demişdir: *"Son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var".*

Ötən 15 ildə əldə olunan uğurları ilk növbədə ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. İqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur dəyişiklikləri ilə institusional islahatların paralel aparılması, konkret hədəflərə və maliyyə mənbəyinə əsaslanan proqramlı idarəetmə bunu bir daha təsdiq edir. Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqramlar qəbul edilmişdir.

Statistik göstəricilər son 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlığını bir daha təsdiq edir: ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 27 dəfə artaraq 45 mlrd. ABŞ dollarına çatmışdır. 2004-2017-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 3,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,6 dəfə, tikinti 3,4 dəfə, ticarət 3,9 dəfə, turizm 14,2 dəfə artmış, iqtisadiyyata 225 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur.

Son 3 ildə iş adamlarının fəaliyyətinə qanunsuz müdaxilə hallarının qarşısının alınması, onların mülkiyyət və digər konstitusion hüquqlarının qorunması, ölkədəki investisiya mühitinin sağlamlaşdırılması, əsassız yoxlamalara, inhisarçılıq meyillərinə qarşı mübarizənin gücləndirilməsi, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, habelə sahibkarlara göstərilən xidmətlərin elektronlaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Bu mərhələdə imzalanan sərəncamlar, qəbul edilən qərarlar, iş adamlarının hüquqlarının bərpası istiqamətində atılan addımlar ölkədə sahibkarlığın inkişafında keyfiyyətcə yeni mərhələnin başladığını göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" fərmanına əsasən, sahibkarlıq fəaliyyətinin bəzi növləri üçün lisenziyaların sayı əhəmiyyətli dərəcədə azaldılmış və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə başlanılmışdır. Lisenziya və icazələr sahəsində aparılmış islahatlara əsasən lisenziya tələb olunan fəaliyyət növlərinin sayı (maliyyə bazarları istisna olmaqla) 59-dan 29-a, icazələrin sayı isə təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmişdir.

Dövlət başçısının təşəbbüsü ilə Milli Məclisdə qəbul edilmiş 2015-ci il 20 oktyabr tarixli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılmışdır. Bu addım qlobal böhran dövründə sahibkarların üzləşdiyi problemlərin həlli, onların fəaliyyətinin dəstəklənməsi baxımından prinsipial siyasi iradə nümayişi hesab olunur.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü əsasında 2017-ci ilin dekabrında Milli Məclisdə qəbul olunmuş qanunla sahibkarlıq subyektlərində yoxlamalar 2021-ci ilədək uzadılmışdır. Bu müddətdə yalnız vergi yoxlamalarının, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən yoxlamaların aparılması mümkündür. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Sahibkar bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti, prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət verə bilərlər.

Xarici ticarətdə müsbət saldonun təmin edilməsi ixrac sahibkarlığının dəstəklənməsi tədbirləri ilə də sıx şəkildə bağlıdır. "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli sərəncamında kənd təsərrüfatı və emal məhsullarına ixracla bağlı geriödəmə dəstəklərinin verilməsi, xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsi, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi və s. nəzərdə tutulmuşdur.

Ölkə rəhbərinin 1 mart 2016-cı il tarixli "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da sahibkarlığa dəstək istiqamətində mühüm addım olmuş, bununla ixrac məhsullarına ixrac təşviqinin maliyyələşdirilməsi və geriödəmə dəstəklərinin verilməsi mexanizmi yaradılmışdır. Sənəd 2016-2020-ci illərdə Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi məqsədini ön plana çəkmişdir. Fərmana əsasən, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir. 2020-ci il dekabrın 31-dək qüvvədə olacaq fərmana görə, ödənilən ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

Azərbaycan qeyri-neft sektorunun prioritetliyinə əsaslanan inkişaf yolu seçməklə yanaşı, tarixən arqar-sənaye respublikası kimi tanınmış və ixtisaslaşmışdır. Son illər institusional baxımdan torpaq və aqrar islahatların uğurla başa çatması, kənd təsərrüfatı istehsalçıları üçün yeni imkanların yaranması qarşıdakı illərdə də sərbəst bazar münasibətlərinə əsaslanan və özünüinkişaf qabiliyyətinə malik bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması prosesi ilə səciyyəvidir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Proqrama görə, kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, pambıqçılığın, tütünçülüyün, çayçılığın, ipəkçiliyin, baramaçılığın və digər sahələrin inkişafı prioritet vəzifə olaraq qalır.

Kənd təsərrüfatı sahəsində çalışan fermerlərin lazımi texnika, gübrə və toxum məhsulları ilə təmin edilməsi məqsədilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, onların gəlir vergisindən azad edilməsi, güzəştli şərtlərlə yanacaq və motor yağları ilə təmini də sahibkarlığa göstərilən qayğının mühüm tərkib hissəsi kimi xüsusi vurğulanmalıdır. İntensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönəlmiş iqtisadi siyasət - quşçuluq və heyvandarlıq komplekslərinin, bağçılıq təsərrüfatlarının, istixanaların və məhsulların saxlanılması üçün soyuducu anbar infrastrukturunun inşası öz nəticələrini verir, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, idxaldan asılılığın əhəmiyyətli dərəcədə azalmasına, ərzaq mallarının qiymətlərinin sabitləşməsinə səbəb olur.

Bütün bunlar Azərbaycanın dünyada maliyyə böhranının dərinləşdiyi bir dövrdə yeni qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq islahatları davam etdirmək, idarəetmə sistemini çevik, şəffaf və səmərəli mexanizmlər əsasında formalaşdırmaq, biznes mühitini liberallaşdırmaq, makroiqtisadi sabitliyi təmin etmək istiqamətində islahatlar aparmaq, milli iqtisadiyyatı yeni şəraitə - neftsiz dövrdə uyğunlaşdırmaq istəyini bariz təcəssüm etdirmişdir. Dövlət başçısı cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin I yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında neft amilindən asılılığın tamamilə azaldılmasının ölkəmiz üçün prioritet məsələlərdən biri olduğunu vurğulamışdır: *"Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə ciddi təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin".*

Nazirlər Kabinetinin dövlət başçısının iştirakı ilə 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası deməyə əsas verir ki, Azərbaycan böhran mərhələsini adlayaraq dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Hesabat dövründə iqtisadiyyatın bütün funksional sahələri üzrə optimal nəticələr əldə olunmuş, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin liberallaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin davam etdirilməsi istər ümumi daxili məhsulun, istərsə də strateji valyuta ehtiyatlarının artımına imkan yaratmışdır. Ötən 9 ayda iqtisadi sahədə islahatların dərinləşdirilməsi nəticəsində ölkədə ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sektoru 1 faiz, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi 10,8 faiz, kənd təsərrüfatı 4,3 faiz artmışdır.

Bütün bunların nəticəsi olaraq "Doing Business" hesabatına əsasən Azərbaycan 2018-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun "Qlobal Rəqabətədavamlılıq" hesabatında isə 35-ci pillədə qərarlaşmışdır. Eyni zamanda respublikamız "Siyasətçilərə ictimai etimad" adlanan indikator üzrə dünyada 20-ci pilləyə yüksəlmişdir və bu da xalqın iqtidara böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

Ötən illərdə ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın layiqli vətəndaşlarının iştirakının təmin edilməsi, əldə edilən iqtisadi nailiyyətlərdən hamının öz bacarıq, zəhmət və əqli imkanlarına görə bəhrələnməsi ölkədə milli birliyin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Milli birliyə yönəlmiş bu fəaliyyətin qayəsində həm də yüksək humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlər dayanmışdır.

Bu gün Azərbaycan demokratiyanı həm də tarixi təcrübənin və ənənələrin dönüş dövrlərində hər bir xalqın keçdiyi tarixi tərəqqi prosesi kimi başa düşərək milli inkişaf modelini nümayiş etdirir. Azərbaycan cəmiyyətinin demokratikləşməsi sonsuz prosesdir və milli xüsusiyyətlər gözlənilməklə, müstəqil dövlət quruculuğu və milli identikliyin qorunub saxlanması şərti ilə həyata keçirilir. Siyasi sabitliyin iqtisadi əsası olmalıdır və yalnız bu halda cəmiyyətdə demokratik inkişaf və şəffaflıq barədə danışmaq olar.

**2003-cü ilin 15 oktyabrında ulu öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deməklə cəmiyyətə özünün layiqli davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ümumi təhlilinə nəzər saldıqda həmin fikrin qəti qənaət olduğunun bir daha fərqinə varırıq. Ümummilli liderin müəyyənləşdirdiyi strategiyanı ötən 15 ildə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun xalqına, dövlətinə necə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. İnanırıq ki, cəmiyyətdə mütləq çoxluğun alternativsiz lider olaraq qəbul etdiyi cənab İlham Əliyev ölkəmizin perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri bundan sonra da inamla gerçəkləşdirəcək, Azərbaycan yaxın illərdə ən müasir və inkişaf etmiş dövlətə çevriləcəkdir.**

***Qüdrət KƏRİMOV,***
***"Xəzər" ASC-nin sədri,***
***iqtisad elmləri doktoru***

# Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi rayonunun Salmanbəyli kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# A.B.Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında tikinti və tarix-memarlıq abidələrinin bərpası sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Arif Bəylər oğlu Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 noyabr tarixli 1787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 noyabr tarixli 1787 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 976; 2012, № 2, maddə 123; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2018, № 1, maddə 79) 1-ci hissəsi ilə yaradılmış komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikasının Moldova Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Moldova Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# *Hikmət HACIYEV:* "Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri cəfəngiyyatdır"

Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri və Azərbaycanın guya erməni əhali olmadan əraziləri tələb etməsi barədə iddiaları tamamilə əsassızdır və cəfəngiyyatdır.

Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan BMT Nizamnaməsinə zidd olaraq, gücdən istifadə etməklə Azərbaycanın ərazilərini, o cümlədən Dağlıq Qarabağ bölgəsini və yeddi ətraf rayonu işğal edib və həmin ərazilərdə qondarma separatçı rejim yaradıb. Ermənistan Azərbaycana qarşı təcavüzünün tərkib hissəsi olaraq, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan çoxsaylı hərbi cinayətlər, insanlıq əleyhinə cinayət əməlləri törədib.

İşğal edilmiş Dağlıq Qarabağın azərbaycanlı icmasına və ətraf rayonların sakinlərinə qarşı qanlı etnik təmizləmə törətməklə Ermənistan yerli azərbaycanlı əhali olmadan həmin əraziləri qanunsuz yolla ilhaq etmək kimi məqsədlər güddüyünü açıq şəkildə nümayiş etdirir.

Bir milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqının ən ümdə hüquqlarını kobud şəkildə pozduğu halda, Ermənistanın insan hüquqlarından danışması hər hansı siyasi, hüquqi və mənəvi çərçivəyə sığmır.

Bu siyasətin davamı olaraq Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar etməyə çalışır. Həmçinin hər bir vəchlə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoqun yaradılmasına imkan vermir.

Hikmət Hacıyev qeyd edib ki, fundamental insan hüquq və azadlıqları universal xarakter daşıyır və bütün insanlığa şamil olunaraq bərabər əsasda və ayrı-seçkilik olmadan tətbiq olunmalıdır. 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında təsbit olunduğu kimi, "bütün insan hüquqları universaldır, ayrılmazdır, qarşılıqlı şəkildə asılı və bağlıdır". İnsan hüquqları üzrə beynəlxalq sənədlərdə aydın şəkildə təsbit olunub ki, başqalarının hüquqlarının pozulması halında heç bir hüquq və azadlıq ifadə oluna bilməz.

Ermənistanın bu cür iddiaları işğal siyasətini gizlətmək, real vəziyyət barədə qeyri-həqiqi təəssürat yaratmaq və beynəlxalq ictimaiyyəti aldadaraq, münaqişənin əsasını təşkil edən Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazilərinin hərbi işğalı faktından diqqəti yayındırmaq cəhdlərindən başqa bir şey deyil.

Ermənistan başa düşməlidir ki, hərbi təcavüz və qanlı etnik təmizləmə və insan hüquqlarının kütləvi şəkildə və kobud pozulması ilə müşayiət olunan vəziyyət heç vaxt legitim qəbul oluna bilməz. Ona görə də beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir.

İşğalçılıq siyasətinə son qoymadan və beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirmədən Ermənistanın demokratik və sivil cəmiyyət qurmaq barədə iddiaları sözdən başqa bir şey deyil.

Monoetnik dövlət olan Ermənistandan fərqli olaraq, Azərbaycan multikultural və inklüziv cəmiyyətə malik dövlətdir. Müxtəlif etnik və dini icmalar Azərbaycanda əsrlər boyu sülh şəraitində birgə yaşayırlar. Bu gün dövlət siyasəti ilə bu ənənələr daha da gücləndirilir.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması ilə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının sülh şəraitində birgəyaşayışı üçün imkanlar yarana bilər. Nəticə etibarilə də regionda davamlı sülh, sabitlik və təhlükəsizlik təmin olunar.

# Dağlıq Qarabağa qanunsuz səfərlə bağlı Rusiya Dövlət Dumasına müraciət ünvanlanacaq



Milli Məclisin dünənki plenar iclası cari məsələlərin müzakirəsi ilə işə başladı. Parlamentin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin (TBMM) təşkilatçılığı ilə Antalya şəhərində keçirilən Avrasiya ölkələri parlament sədrlərinin üçüncü görüşündə iştirak etdiyi üçün iclasa birinci müavin Ziyafət Əsgərov sədrlik edirdi. Oktyabrın 12-si və 16-da keçiriləcək plenar iclasların gündəliyinə isə ümumilikdə 54 məsələ daxil edilmişdi.

### Dağlıq Qarabağa qanunsuz səfərlər deputatları ciddi narahat edir

Müzakirələr zamanı deputatlardan Sevinc Hüseynova, Fərəc Quliyev, Gövhər Baxşəliyeva, Elman Nəsirov, Zahid Oruc və Elman Məmmədov çıxış edərək, cari məsələlərlə bağlı fikirlərini bildirərək müxtəlif təkliflər səsləndirdilər.

Bəzi deputatlar oktyabrın 7-də bir qrup rusiyalı qadının Azərbaycanın işğal olunmuş ərazisinə, Dağlıq Qarabağa qanunsuz səfərindən ciddi narahatlıqlarını ifadə etdilər. Qeyd edildi ki, həmin qadınlar arasında Rusiya Dövlət Dumasının Beynəlxalq işlər üzrə komitəsinin sədr müavini Svetlana Jurova da olub. Onlar səfərlərini "sülhlə bağlı" adlandırırlar. Amma bütün dünya ictimaiyyəti bilir ki, Qarabağ müharibəsini Ermənistan başlayıb və Xocalıda 106 qadın, 63 uşaq qətlə yetirilib.

Deputatlar bu məsələ ilə bağlı Rusiya Dövlət Dumasına müraciət olunmasının vacibliyini vurğuladılar.

### Xarici siyasət məsələlərinə həssas yanaşılmalıdır

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov son zamanlar bəzi qüvvələrin Azərbaycanın beynəlxalq münasibətlərinə xələl gətirməyə cəhd göstərmələrindən söz açdı. Bildirdi ki, ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbindən sonra ikinci dəfə hakimiyyətə qayıdanda ilk olaraq Azərbaycanın bütün qonşuları ilə balanslaşdırılmış siyasət aparmasını təmin etdi.

Bu gün isə Prezident İlham Əliyev həyata keçirdiyi müstəqil siyasətlə ölkəmizi dünya birliyinin Cənubi Qafqazda ən etibarlı tərəfdaşına çevirib. Lakin son zamanlar hansısa qruplaşmalar, fərdlər ölkələrinin adından danışaraq dövlətlərarası münasibətlərə xələl gətirməyə cəhd edirlər. Onların söylədikləri isə həmin dövlətlərin rəsmi mövqeyi hesab edilməməlidir: "Biz xarici siyasət məsələlərinə həssas yanaşmalı və qurulan dövlətlərarası münasibətlərə hər hansı bir xələl gəlməməsinə, hansısa jurnalistin, ermənipərəst siyasətçinin bundan istifadə edərək antiazərbaycan əhvali-ruhiyyəsi yaratmamasına çalışmalıyıq. Diqqətli olmalıyıq ki, öz fəaliyyətimizlə Prezidentin apardığı xarici siyasətə hər hansı bir xələl gətirməyək. Rusiyada ayrı-ayrı deputatların fikirləri rus xalqının, dövlətinin mövqeyi ola bilməz. Onlar bu cür fikirlər söyləməklə ermənilərin diqqətini çəkməyə çalışırlar. Bir müddət əvvəl İranda da bir qrup ortaya düşmüşdü, onlar da Azərbaycanla aranı qatmaq istəyirdilər. Bütün bu məsələlər dövlət səviyyəsində tənzimlənir".

### İşçi qrupu kəskin arqumentlərə əsaslanan müraciət hazırlayıb

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deputat həmkarlarının Dağlıq Qarabağa qanunsuz səfərlə bağlı narahatlıqlarına cavab olaraq bildirdi ki, bu məsələ diqqətdədir və Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin, eləcə də digər komitələrə Milli Məclis tərəfindən müraciət ünvanlanacaq:

"Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu bununla bağlı kəskin arqumentlərə əsaslanan müraciət hazırlayıb. Sənəd həm mən, həm də deputat, Rus icmasının sədri Mixail Zabelin tərəfindən imzalanacaq. Biz buna münasibət bildirmək istəməzdik, amma məhz Rusiya Dövlət Dumasının Xarici əlaqələr komitəsinin sədrinin birinci müavininin səfəri bizi buna vadar etdi. O, Rusiya hakim partiyasının üzvü olduğuna görə həmin partiyaya da müraciət etmişik. Əmin ola bilərsiniz ki, bu məsələ diqqət mərkəzindədir. Müraciətimizdə qeyd etmişik ki, Rusiya Federal Məclisi Dövlət Dumasının rəhbərliyi üzvlərə prosedur qaydada xəbərdarlıq etsin ki, işğal olunmuş ərazilərə getməsinlər".

Bu məsələdən sonra gündəliyin müzakirəsinə başlanıldı.

Komitə sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanun layihəsi haqqında (ikinci oxunuş) məlumat verərək bildirdi ki, təklif olunan texniki dəyişiklik normativ hüquqi aktların hazırlanmasında səmərəliliyin artırılması, vaxt itkisinə yol verilməməsi və çevikliyin təmin edilməsi məqsədilə edilir. Sənəd təsdiq edilərək qəbul olundu.

Gündəlikdəki üç sənəd - "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Rəsmi statistika haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihələrini isə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə təqdim etdi. Bildirdi ki, bu sənədlərə edilən dəyişikliklər "Sahibkarlıq fəaliyyəti haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Hər üç sənəd səsə qoyularaq təsdiq edildi.

### Vətəndaşları aldadan tikinti şirkətlərinə nəzarət gücləndirilməlidir

"Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə məlumat verən komitə sədri Əli Hüseynli qeyd etdi ki, dəyişiklik cəzaların humanistləşdirilməsi siyasətinin davamıdır və uyğunlaşdırma xarakteri daşıyır.

Müzakirələrdə çıxış edən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri S.Novruzov cəza sisteminin yüngülləşdirilməsindən danışaraq dedi ki, məhkəmə hökmü çıxarılmasına qədər həbs qətimkan tədbiri görülməsinə ehtiyac yoxdur. Onun sözlərinə görə, belə halda vətəndaşa daha çox imkan yaranır ki, bu işlərin həyata keçirilməsinə öz töhfəsini verə bilsin. Həmin şəxs bu müddətdə elə faktlar ortaya çıxarar ki, bunun əsasında bəraət ala bilər.

Komitə sədri bəzi tikinti şirkətlərinin vətəndaşları aldatmaqla məşğul olduğunu da deyərək vurğuladı ki, mənzilləri dörd-beş nəfərə satan dələduzlar barədə verilən məhkəmə hökmü çox hallarda ədalətli olmur. Onun sözlərinə görə, həmin insanların barəsində çıxarılan cəza tədbirləri ilə yanaşı dəymiş ziyanın ödənilməsi məsələsi də ciddi nəzarətə götürülməlidir. Çünki həbs edilən sahibkarlar 15 ildən sonra azadlığa çıxır, zərərçəkmiş insanlar isə illərlə qazandığı pulları itirmiş olurlar.

Deputat Elman Məmmədov bildirdi ki, cəzaların yüngülləşdirilməsi siyasəti alqışlanan bir addımdır. Deputat Rüfət Quliyev Siyavuş Npvruzovun toxunduğu məsələyə diqqət çəkərək zərərçəkənlərin hüquqlarının müdafiəsi ilə bağlı ciddi tədbirlərin görülməsinin vacibliyini bildirdi.

İclasda həmçinin "Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" sənədlər də müzakirəyə çıxarılaraq təsdiqləndi.

### Azərbaycan neft strategiyasının yeni uğuru sayılacaq mühüm saziş

İclasda "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Dövlət Neft Şirkəti ilə "BP Eksploreyşn (Azərbaycan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi haqqında yeni sənəd geniş müzakirə olundu.

Öncə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov saziş barədə danışaraq sənədin Azərbaycan Dövlət Neft Şirkəti ilə "BP Eksploreyşn (Azərbaycan) Limited" şirkəti arasında bu il aprelin 26-da imzalandığını söylədi. Kontrakt sahəsi Xəzər dənizində kəşf edilməmiş və çox riskli bir ərazidir. Həmin ərazidə heç bir vəsait xərcləmədən neft-qaz ehtiyatlarının aşkarlanması Azərbaycan dövləti və iqtisadiyyatı üçün faydalı olacaq. Bu ərazidə kəşfiyyat işlərinə başlanılacaq və gələcəkdə həmin bölgədə işləri planlaşdırmaq üçün daha dolğun məlumat əldə etmək mümkün olacaq. Kontrakt sahəsi təxminən 3 min 200 kvadratkilometrə yaxın ərazidir. Sahildə yerləşən ən yaxın yaşayış sahəsinə 65 kilometr məsafə var. Bu ərazidə kommersiya dəyəri olan neft və qaz aşkar edilib hasilat başlanana qədərki riskli dövrdə bütün maliyyə işlərini BP şirkəti həyata keçirəcək. Toplam hasilat 5 milyon tona çatana qədər mənfəətli neftin 70 faizi podratçı tərəflərə ödənilir. Toplam hasilat 10 milyon tondan çox olduqda mənfəətli karbohidrogenlər tərəflər arasında yarıbayarı bölünəcək. Sənəd səsə qoyularaq təsdiq edildi.

Gündəliyə daxil olan "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında", Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi barədə qanun layihələri, eləcə də "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizə sahəsində əməkdaşlıq haqqında" sazişlərin təsdiq edilməsi barədə layihələr də səsə qoyularaq qəbul edildi.

Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlarda (birinci oxunuş) dəyişiklik edilməsi barədə layihələr də müzakirəyə çıxarılaraq təsdiqləndi.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verərək dedi ki, sənədlərə edilən dəyişikliklər digər qanunlara uyğunlaşdırma xarakteri daşıyır.

Dəyişikliklər "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Prezidentinin 10 fevral 2017-ci il tarixli sərəncamının icrası ilə əlaqədar təklif edilir. Dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Hər iki sənəd ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

İclasda həmçinin "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında" (birinci oxunuş), "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri (hər üçü birinci oxunuş) də təsdiqləndi.

### Milli Məclis deputatlar üçün xüsusi medal təsis etsin

"Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) və "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri (ikinci oxunuş) müzakirə mövzusu oldu.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov təkliflə çıxış edərək bildirdi ki, ölkədə bütün icraedici orqanların medalları təsis olunub. Ancaq parlamentin deputatlarına 100 illik yubileylə bağlı xüsusi medalı yoxdur. Yalnız xatirə medalı var ki, o da stolüstü bir medaldır. Yəni hansısa beynəlxalq tədbir, əlamətdar bayram günlərində bu medalı üzərlərində gəzdirmələri qeyri-mümkündür: "Yaxşı olardı ki, uzun müddət Milli Məclisdə xidməti olan şəxslər medallarla təltif edilsinlər. Bununla bağlı yeni medal təsis edilsə, daha yaxşı olar. Hər bir dövlət strukturu üçün medallar təsis edilib. Hesab edirəm ki, Milli Məclis də öz əməkdaşları, deputatlar üçün xüsusi medal təsis etməlidir".

Deputat Vahid Əhmədov da Siyavuş Novruzovun fikirlərinə dəstək oldu. Onun fikrincə, yaxşı olardı ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı deputatlara belə bir medal verilsin.

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov isə bu məsələyə baxılacağını söylədi.

### Ölkəmizdə ali təhsil almaq istəyən əcnəbilərə təhsil qrantları veriləcək

"Təhsil haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi haqqında (ikinci oxunuş) parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli məlumat verərək bildirdi ki, sözügedən sənəddə zəruri dəyişikliklər aparılıb.

Habelə sənədin Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə təhsil almaq hüququnu təsbit edən 44-cü maddəsinə yeni müddəa əlavə olunur. Yeni dəyişikliklər Azərbaycan Prezidentinin "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında" 2017-ci il 6 dekabr tarixli və "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycanın ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında" 2018-ci il 10 yanvar tarixli sərəncamlarının icrası məqsədilə təklif olunur.

Müzakirələrdə çıxış edən parmalentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, son 15 ildə Azərbaycan təhsil sistemində ciddi islahatlar aparılıb. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət sayəsində ölkədə 3 mindən artıq məktəb, bağça tikilib, bu il isə 150-dən artıq modul tipli məktəb istifadəyə verilib.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında (ikinci oxunuş), "Tütün və tütün məmulatı haqqında" (ikinci oxunuş), "Televiziya və radio yayımı haqqında" (ikinci oxunuş), "İctimai televiziya və radio yayımı haqqında" (ikinci oxunuş) və "Teatr və teatr fəaliyyəti haqqında" (ikinci oxunuş) qanunlarda dəyişiklik edilməsi barədə layihələr də müzakirəyə çıxarılaraq təsdiqləndi. Deputatlar Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihələrinə (ikinci oxunuş) də müsbət münasibət bildirdilər.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı. Gündəlikdə qalan digər məsələlər növbəti iclasda müzakirə ediləcək.

***Fərizə ƏHMƏDOVA,***
***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Bakıda XII Azərbaycan beynəlxalq təhsil sərgisi açılıb

## "Uşaqların gələcəyinə sərmayə" devizi altında təşkil edilən sərgi 12 ölkədən 130-dan çox iştirakçını bir araya gətirib







Bakı Ekspo Mərkəzində Təhsil Nazirliyinin dəstəyi, "Caspian Event Organisers" (CEO) şirkətinin təşkilatçılığı ilə XII Azərbaycan beynəlxalq təhsil sərgisinin ("Education 2018") açılışı olub. Mərasimdə ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri, müxtəlif təhsil xidmətləri göstərən qurumların nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən təhsil naziri Ceyhun Bayramov "Uşaqların gələcəyinə sərmayə" devizi altında keçirilən sərginin dünyanın 12 ölkəsindən 130-dan çox iştirakçını bir araya gətirdiyini deyib. Nazirliyin son illər təhsilin inkişafı sahəsində həyata keçirdiyi islahatların ayrı-ayrı pavilyonlarda əksini tapdığını vurğulayan Ceyhun Bayramov sərginin ziyarətçilər üçün faydalı olacağına əminliyini bildirib.

Nazir qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın imzalanmasından ötən 5 il ərzində təhsilin müxtəlif pillələrinə aid istiqamətlərdə mühüm dövlət sənədləri qəbul edilib və layihələr həyata keçirilib. Dörd il əvvəl məktəbəhazırlıq yaşına çatmış uşaqların təhsilə cəlbolunma səviyyəsi 25 faiz idisə, strategiyaya uyğun aparılan işlər nəticəsində ötən tədris ilində bu göstərici 65, cari tədris ilində isə 75 faiz olub. "Bu il 3-5 yaşlı uşaqlar üçün nəzərdə tutulan icma əsaslı təhsilə cəlb edilən uşaqların sayı 2 minə yaxın olub" deyən nazir bu göstəricini yüksəltməyin əsas hədəflərdən biri olduğunu diqqətə çatdırıb.

Sərgidə ölkənin bir sıra aparıcı ali təhsil müəssisələrinin də iştirak etdiyini bildirən nazir Ceyhun Bayramov diqqətə çatdırıb ki, son dövrlərdə ali təhsilin əhatəlilik səviyyəsi əhəmiyyətli şəkildə artıb. Belə ki, 2018-2019-cu tədris ili üzrə qəbul imtahanlarının nəticələrinə görə əvvəlki illərlə müqayisədə rekord sayda - 41 min abituriyent tələbə adını qazanıb, 500 və daha çox bal toplayan məzunlardan 2090-ı müəllimlik peşəsini seçib.

### Təhsilin inkişafına böyük töhfə

"Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun ənənəvi olaraq hər il keçirilən sərginin maraqla qarşılandığını, ziyarətçilərə təhsil müəssisəsi seçməkdə geniş imkan yaratdığını deyib. O bildirib ki, təhsilin inkişafına böyük töhfə verən sərgiyə son illər gələn iştirakçıların sayı 7-8 min olub. Ayrı-ayrı ölkələri təmsil edən şirkətlər xaricdə təhsil proqramları, müasir texnologiyalar və sinif otaqları üçün lazım olan müxtəlif avadanlıq təqdim edirlər.

Sonra 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri çıxış edib, iştirakçılar sərgi ilə tanış olublar.

Ötən illərlə müqayisədə Təhsil Nazirliyi sərgidə geniş pavilyonda təmsil olunur. Sərgiyə gələnlərə "Məktəbəhazırlıq", "Olimpiadalara hazırlıq mərkəzi", "Peşə Təhsili üzrə Dövlət Agentliyi", "Təhsil" "Respublika İdman Mərkəzi", "Uşaq-Gənclər İnkişaf Mərkəzi", "SABAH" qrupları", "İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi", "Sağlam təhsil - sağlam millət", "Maarifçi" Tələbə Kredit Fondu", "Məktəblinin dostu", "Modul tipli məktəblər", "İT STEP", "Media Mərkəz - Təhsil TV" və digər stendlər təqdim edilir.

### Gələcək abituriyentlərin ixtisas seçiminə yaradılan imkanlar

Sərgi ilə bağlı fikirlərini bölüşən Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva deyib: "Hər bir təhsil müəssisəsinin sərgidə təmsil olunmağı onun fəaliyyətinin göstəricisidir. Sərgidə il ərzində qazandığımız nailiyyətləri, tədrisdəki yenilikləri, ölkədə və xaricdə nəşr olunan kitabları, müəllimlərimizin monoqrafiyalarını, habelə universitetin beynəlxalq əlaqələrini, xarici ölkələrin ali təhsil ocaqları ilə birgə keçirdiyimiz tədbirləri əks etdirən müxtəlif vəsaitləri nümayiş etdiririk. Çalışırıq ki, sərgiyə gələnlər universitetimiz, onun fəaliyyəti, tədris prosesi, beynəlxalq əlaqələri haqqında ətraflı məlumat əldə etsinlər. Sərgi gələcək abituriyentlərin ixtisas seçimində böyük rol oynayır".

Azərbaycan Texnologiya Universitetinin tədris işləri üzrə prorektoru Vüqar İsmayılov bildirib ki, təmsil etdiyi ali məktəb builki sərgidə öz istehsalı olan məhsullarını təqdim edir. Universitetə aid stenddə UTECA Texnoparkının yüngül sənaye, qida, eləcə də xalçaçılıq, şərab, gön-dəri və digər məhsulları sərgilənir. Qeyd edilib ki, bu məhsullar universitetin texnoparkında tələbə-müəllim heyəti tərəfindən hazırlanır. Prorektor növbəti təhsil sərgilərində daha geniş şəkildə müxtəlif məhsullarla iştirak edəcəklərini söyləyib.

### Sərgi Azərbaycan təhsilinə beynəlxalq səviyyədə diqqətin artmasının göstəricisidir

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovanın fikrincə, ölkədə ənənəyə çevrilən beynəlxalq təhsil sərgisi bu sahənin il ərzində inkişafının göstəricisidir və bütün ali məktəblər bu platformadan faydalanmağa, daha çox istifadə etməyə çalışır. Burada hər universitet öz nailiyyətlərini, il ərzində qazandığı uğurları nümayiş etdirə bilir. Eyni zamanda, universitetlər məktəbli kütləsi, gələcəyin abituriyentləri qarşısında ixtisaslarını təbliğ etmək, onlar barədə daha ətraflı məlumat vermək, profilə uyğun vəsait və ədəbiyyatları gənclərə çatdırmaq imkanı qazanırlar. Bu platforma həmçinin universitetlərarası əlaqələrin qurulmasında və yeniliklərin öyrənilməsində böyük əhəmiyyət daşıyır.

"Builki sərgidə biz universitetin il ərzində qazandığı nailiyyətləri, tələbələrimizin beynəlxalq müsabiqələrdə əldə etdikləri mükafatları və onların layihələrini nümayiş etdirməyə çalışmışıq. Stendimizdə həmçinin universitetimizdəki yeniliklər, müəllimlərimizin müəllifi olduqları dərs vəsaitləri və monoqrafiyalar, yeni laboratoriyalarımız barədə ətraflı məlumat verilir", - deyə professor Gülçöhrə Məmmədova bildirib.

### "Education 2018" ali məktəblər arasında əlaqələr yaradan platformadır

Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmov rəhbərlik etdiyi ali məktəbin hər il sərgidə uğurla iştirak etdiyini bildirib. Diqqətə çatdırılıb ki, sərgidə BDU-da təhsil prosesində istifadə olunan innovativ istiqamətləri əks etdirən laboratoriya avadanlığı, cihazlar, yeni reaktivlər nümayiş olunur. "Çalışmışıq ki, tədris prosesində tələbələrə çatdırılan yeni elmi yanaşmaları, xüsusilə fizika sahəsində lazerin yarımkeçiricilər vasitəsilə məqsədyönlü istiqamətini, bioloqlar və ekoloqlar üçün nanohissəciklərin bitkilərin inkişafındakı rolu barədə əldə olunan uğurları sərgi iştirakçılarının diqqətinə təqdim edək. Elmi uğurlarımız böyükdür və biz bunları təhsil mühitinə transfer etməyə çalışırıq", - deyə rektor vurğulayıb.

Abel Məhərrəmov qeyd edib ki, yüksək səviyyədə təşkil olunan beynəlxalq təhsil sərgisi ali məktəblər arasında əlaqələrin yaradılmasında mühüm platformadır.

Hər il keçirilən bu sərginin ənənə halını aldığını deyən Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru vəzifəsini icra edən Amil Əlili bildirib ki, sərgidə yerli və xarici təhsil müəssisələrinin təmsil olunması gənclərimizin bu sahədə yeniliklər və innovativ texnologiyalar barədə məlumatlar əldə etmələrinə imkan yaradır. Hər il sərgidə təmsil olunan agentlik ilbəil peşə təhsili sahəsində həyata keçirdiyi islahatların nəticəsi olaraq yeni xidmətlər və ixtisaslar təqdim edir.

### Sərgidə həm texniki, həm də humanitar universitetlər təqdim olunur

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov sərgidə Rusiyanın 16 universitetinin təmsil olunduğunu diqqətə çatdırıb. O deyib: "Rusiya həm texniki, həm də humanitar universitetlərini təqdim edir. Əlbəttə, hər iki istiqamət bərabərdir, lakin mən texniki universitetləri xüsusi qeyd etmək istərdim, çünki onlar iqtisadi əlaqələrin əsasını təşkil edir. Burada olan universitetlərin nümayəndələri azərbaycanlı tələbələrin artıq həmin ali məktəblərdə təhsil aldıqlarını vurğulayıblar. İndiyədək Rusiya universitetlərində 15 minə qədər tələbə təhsil alıb. Bu, həm əyani, həm qiyabi, həm də distant təhsil alanlardır".

"KapitalBank"ın baş sponsor olduğu sərgi Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənir.

XII Azərbaycan beynəlxalq təhsil sərgisi oktyabrın 13-dək davam edəcək.

# İlham Əliyevin "ictimai sabitlik modeli" MDB-də nümunədir

## Azərbaycan sabitliyə görə postsovet məkanında ilk yerdədir

*Əvvəli 1-ci səh.*

Çox uzağa getmədən elə postsovet məkanından bu barədə kifayət qədər fakt göstərmək olar. Bu mənada artıq kosmos dövlətinə çevrilən, bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasına seçilməklə iki il dünyanın ən ali təşkilatında uğurlu fəaliyyət göstərən, yerləşdiyi bölgənin imkanlarından, malik olduğu karbohidrogen resurslarından səmərəli istifadə etməklə uğurlarını ildən-ilə sürətlə artıran Azərbaycan həqiqətən inkişaf fenomeninə çevrilib. Xüsusilə qeyd etməliyik ki, dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi ilə müşayiət olunan son illərdə ölkəmizdə həyata keçirilən siyasət nəticəsində bütün sahələrdə uğurlar və yeniliklər əldə edilib.

Bütün bu uğurlar və bütövlükdə Azərbaycanın hazırkı reallıqları ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının nə dərəcədə mükəmməl xarakter daşıdığını təsdiq edir. Həm də bir daha aydın olur ki, bu siyasət yeni çalarlarla daha da zənginləşdirilərək dövrün tələblərinə uyğun formada Prezident İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir.

Ölkəmizin ən böyük uğurlarından biri isə ictimai-siyasi sabitlikdir. Çünki və məhz ictimai-siyasi sabitliyin təmin olunması qarşıda dayanan digər vəzifələrin yerinə yetirilməsinə əsas amil sayılır. Bu gün dünyanın əksər regionlarında sosial, iqtisadi və siyasi problemlər qabarıq şəkildə özünü büruzə verir. Xüsusilə qeyd edək ki, artıq neçə onilliklərdir ki, planetin müxtəlif yerlərində müxtəlif səbəbləri olan hərbi münaqişələr, müharibələr hökm sürür. Bunlardan başa çatanı olsa da, bir başqa yerdə yeni münaqişə ocağı yaranır. Nəticə etibarilə bunlar xalqların taleyində dərin iz buraxır, ona ağır mənəvi zərbə vurur, məhrumiyyətlərə düçar edir. Hərbi münaqişə həm də iqtisadi tənəzzül deməkdir. Dağılan iqtisadiyyatın bərpası üçün uzun illər belə yetmir. Hazırda ərəb ölkələrindəki qarşıdurmalar hələ bitməyib. İraq və Suriyada terrorun kökünü tamamilə kəsmək hələ də mümkün olmayıb. Bu ölkələrin hər biri dini və etnik zəmində ərazi bütövlüyünün pozulması təhdidi ilə üz-üzədir. Onların xalqları, günahsız insanlar çox ağır məhrumiyyətlərlə üz-üzə qalaraq humanitar fəlakətə düçar olub. Bütün bunlar göstərir ki, sabitliyin və təhlükəsizliyin təmin olunması həqiqətən vacib məsələdir.

Son illər müharibələrdən qaynaqlanan digər bir problem Yaxın Şərq və Afrika ölkələrindən olan insanların xoş güzəran dalınca Avropaya daha da çoxalan axınıdır. Avropa ölkələrinin tarixən davam edən müstəmləkəçilik və imperializm siyasətindən, son illərdə isə Yaxın Şərqdə həyata keçirdikiləri yeni imperializm planlarından qaynaqlanan bu problem artıq humanitar faciəyə çevrilib. Demək olar ki, mütəmadi olaraq miqrantları daşıyan qayıqların batması barədə xəbərlər eşidirik.

Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Ölkəmizdə ictimai-siyasi durum bütün dünyaya nümunədir. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətlərinin nəticəsində Azərbaycanda təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxunun yaddaşında dərin iz buraxıb. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi, ictimai-siyasi sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Prezident İlham Əliyevin 15 illik fəaliyyətinin ən qabarıq tərəflərindən biri də bu dövrdə ictimai-siyasi sabitliyin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi, cəmiyyət həyatının təhlükəsizliyinin təmin olunmasıdır. Təsadüfi deyil ki, Bakı şəhəri və bütövlükdə respublikamız dünyanın ən təhlükəsiz diyarlarından biri kimi tanınır.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsində bu məsələlərə geniş yer ayrılıb. "İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə ilk növbədə ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlədib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin edib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olunub. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır", - deyə məqalədə qeyd olunur.

Əli Həsənov qeyd edir ki, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirib.

"Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınıb, onun beynəlxalq nüfuzu getdikcə yüksəlib. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilib. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurub və müvafiq sənədlər imzalayıb", - deyə Əli Həsənov yazır.

Bugünün reallıqları ondan ibarətdir ki, Azərbaycan yerləşdiyi bölgənin ən sabit və ən dinamik inkişaf edən ölkəsidir. Başqa bir həqiqət odur ki, ölkə əhalisi mövcud siyasi kursu dəstəkləyir və bu da vətəndaş həmrəyliyinin təmin olunmasında əsas şərtlərdən biridir. Bütün bunlar isə zəncirvarı şəkildə bir-birini tamamlayaraq bütövlükdə Azərbaycanın dövlətçiliyinin güclənməsinə, müstəqilliyinin möhkəmlənməsinə, beynəlxalq nüfuzunun yüksəlməsinə və nəhayət, cəmiyyətimizdə bərqərar edilmiş sabitliyin və vətəndaş həmrəyliyinin əbədi olmasına mühüm töhfələr verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Azərbaycanın mədəniyyət naziri:*

# "Bakı mədəniyyətlərarası dialoq siyasətini dəstəkləyir"

Mərakeşin paytaxtı Rabatda Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatının (ISESCO) 13-cü konfransı keçirilir. Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev konfransın işində iştirak edir.

Nazir TASS agentliyinə eksklüziv müsahibəsində bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini hərtərəfli dəstəkləyir və həyata keçirir.

Ə.Qarayev qeyd edib ki, ölkəmizin siyasəti tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlib.

Müsahibədə deyilir: "Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən ISESCO ilə əməkdaşlığa çox ciddi yanaşır və bu təşkilatın fəal iştirakçısıdır. Biz çoxlu konfranslar, "dəyirmi masa"lar keçirir, təhsil proqramlarını reallaşdırırıq. ISESCO-nun bundan əvvəlki, 12-ci Baş Konfransı 2015-ci ildə Bakıda keçirilib. Bugünkü hesabat məruzəsində və nümayəndələrin çıxışlarında qeyd edildiyi kimi, həmin konfrans uğurlu olub".

Ə.Qarayev vurğulayıb: "Bu gün Azərbaycan ISESCO-nun Baş Konfransının sədri səlahiyyətlərini təhvil verir, lakin fəal əməkdaşlığımız, əlbəttə, davam edəcək. Biz istəyirik ki, səsimiz eşidilsin, uğurlarımız hamıya məlum olsun. Təbii ki, biz sivilizasiyaların dialoqunun, mədəniyyətlərin dialoqunun inkişafına, ümumbəşəri dəyərlər naminə İslam aləmi ilə Qərb dünyasının bir-birini daha yaxşı anlamasına yönəlmiş siyasətimizi davam etdirəcəyik".

Onun sözlərinə görə, son üç ildə ISESCO-nun Baş Konfransına rəhbərlik edən Azərbaycan bir sıra iri tədbirlər keçirib. Nazir sözünə davam edərək deyib: "Məsələn, 2017-ci ildə Bakıda çoxsaylı iştirakçıları olan IV İslam Həmrəyliyi Oyunları keçirilib. Mənim fikrimcə, bu Oyunlar çox uğurlu olub".

Ə.Qarayev vurğulayıb: "Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini də hərtərəfli dəstəkləyir və həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci ildə mədəniyyətlərarası dialoq çərçivəsində Qərb və Şərq dünyası arasında əlaqələrin həyata keçirilməsi təşəbbüsünü irəli sürüb. Biz mədəniyyətin müxtəlif sahələrini təmsil edən təşkilatları mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumunun həmtəsisçiləri kimi birləşdirməyə nail olduq. Tədbirin tərəfdaşları qismində ISESCO, Avropa Şurası, UNESCO, BMT Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı çıxış edirdi. Keçən ildən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı da tərəfdaşlara qoşulub.

Bu o deməkdir ki, Azərbaycanın tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlmiş siyasəti sülh işinə və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir".

Nazir deyib: "2009-cu ildə ISESCO-nun qərarı ilə Bakı İslam Mədəniyyəti Paytaxtı elan edildi. 2018-ci ildə isə bu fəxri ada Azərbaycanın Naxçıvan şəhəri layiq görüldü. Bu, bizim üçün böyük hadisədir və Azərbaycan mədəniyyətinin səviyyəsini, onun müxtəlifliyini bütün dünyaya göstərmək imkanı verir.

İslam aləminin və Avropanın mədəni paytaxtları arasında mədəni dialoq təşəbbüsünü məhz Azərbaycan irəli sürüb. Bu, ölkələr arasında dostluq körpüləri qurmağa şərait yaradıb. Düşünürəm ki, bu, ən düzgün yoldur - mədəniyyət birləşdirməli və qovuşdurmalıdır".

Nazir Azərbaycan mədəniyyətini fəal təbliğ edən, mədəniyyətlərarası proseslərin və mübadilələrin hərəkətverici qüvvəsi olan Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyevanın rolunu xüsusi qeyd edib.

Ə.Qarayev vurğulayıb: "Azərbaycan əhalisinə tarixən xas olan dözümlülük və tolerantlıq keyfiyyətləri çoxəsrlik inkişaf dövrünü yaşayıb. Hazırda respublikada müsəlmanlar, yəhudi və xristian icmaları dinc yanaşı yaşayır, bir-birinə hörmət bəsləyir. Biz insanlar arasında ünsiyyət məkanı olan mədəniyyətlərarası dialoq forumları, sivilizasiyalararası dialoq forumları keçiririk. Buna görə də bu gün Azərbaycan ümumbəşəri dəyərlərin birləşdiricisi rolunu öz üzərinə götürə bilər".

Nazir çıxışının sonunda deyib: "Avropa ilə Asiyanın, Qərb və Şərq dünyasının qovuşuğunda yerləşən Azərbaycan özünün sülhyaratma, vasitəçilik və sivilizasiya imkanlarını təklif edən platforma ola bilər".

***AZƏRTAC***

# Qeyri-neft sektoruna sərmayə qoyuluşu 20 faizdən çox artmışdır

Dövlət Statistika Komitəsi cari ilin 9 ayında ölkə üzrə kapital qoyuluşu barədə məlumatı açıqlayıb. Məlumatda bildirilir ki, qeyd olunan dövrdə iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10 milyard 148,7 milyon manat vəsait yönəldilmişdir. Bu aylar neft sektoruna yatırılan sərmayənin həcmi azalmışdır. Əvəzində qeyri-neft sektoruna yönələn vəsaitin həcmi 20,2, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 24,4 faiz artmışdır.

Ümumi sərmayənin 69,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. İstifadə edilən vəsaitin 69,3 faizi məhsul istehsalı, 22,4 faizi xidmət sahələri obyektlərinin, 8,3 faizi ümumi sahəsi 1 milyon 503,6 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsait ümumi sərmayənin 60,7 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 51,1, bank kreditləri 13,6, büdcə vəsaitləri 25,7, əhalinin şəxsi vəsaitləri 7, büdcədənkənar fondların vəsaitləri 1,8, digər vəsaitlər 0,8 faiz olmuşdur.

Bu vəsaitlər hesabına yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Bakı şəhərində Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi və Bakı Şəhər Statistika İdarəsi üçün inzibati binalar, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" hoteli, Respublika Narkoloji Mərkəzi, Abşeron Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıtdakı Kimya Sənaye Parkında polipropilen zavodu, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə iki müəssisə, Naftalan şəhərində Mərkəzi xəstəxana, Goranboy rayonunda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, "Dəliməmmədli" elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout yolu, Xaçmaz rayonunda "Azərxalça" ASC-nin filialı, İsmayıllı rayonunda heyvandarlıq kompleksi, aqropark, "İsmayıllı" elektrik yarımstansiyası, "Azərxalça" ASC-nin İsmayıllı filialı, Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Neftçala Sənaye Məhəlləsində "Xəzər" Avtomobil Zavodu, Şamaxı rayonunda üzümçülük və şərabçılıq kompleksi, Dəmirçi Arxeologiya Muzeyi, Dəmirçi-Lahıc avtomobil yolu, Biləsuvarda Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolu, Masallıda sənaye məhəlləsi, çəltik emalı müəssisəsi, bunlardan əlavə, Naxçıvan MR-də ambulatoriya-poliklinika müəssisəsi, 1444 şagirdlik 4, Bakı və Şəki şəhərlərində, Abşeron, Balakən, Şamaxı rayonlarında 5816 şagirdlik 5 ümumtəhsil məktəb binası və s. obyektlər istifadəyə verilmişdir.

***"Azərbaycan"***

# Soydaşlarımız Kaliforniyada Merilend prospektinin "Arsax" adlandırılmasına etiraz edir

*ABŞ-ın Kaliforniya Ştatının Qlendeyl şəhərindəki Merilend prospektinin adının dəyişdirilərək "Arsax" adlandırılmasına etirazla bağlı petisiya hazırlanıb*

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız və diaspor təşkilatları ABŞ-ın Kaliforniya Ştatının Qlendeyl şəhərindəki Merilend prospektinin adının dəyişdirilərək "Arsax" adlandırılmasına etiraz edirlər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı artıq diaspor təşkilatlarının etiraz məktubları yayılmaqdadır. Etirazlarda bildirilir ki, Dağlıq Qarabağ Azərbaycanın əbədi və əzəli torpağıdır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistanın işğalçılıq siyasətinə son qoymasına çağırışla bağlı, BMT başda olmaqla, müxtəlif beynəlxalq təşkilatların dəfələrlə qətnamə, bəyanat və digər sənədlər qəbul etməsinə baxmayaraq, Kaliforniya ştatında belə bir addımın atılması ciddi təəssüf doğurur. Özünü demokratiyanın beşiyi adlandıran, BMT Təhlükəsizlik Şurasının üzvü olaraq Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə dair 822, 853, 874, 884 saylı qətnamələrin lehinə səs verən, ATƏT-in Minsk qrupunun həmsədri də olan bir ölkədə prospektin Arsax adlandırılması ikili standartların nümunəsidir və Ermənistanın işğalçılıq siyasətinə dəstək cəhdidir.

Bu haqsızlığın aradan qaldırılması, işğalçıya dəstək cəhdinin qarşısının alınması məqsədilə müvafiq etiraz kampaniyasına başlanılıb və bununla bağlı petisiya hazırlanıb. Bütün soydaşlarımızın etiraz aksiyasına qoşulması, aşağıda göstərilən linkə daxil olaraq petisiyaya imza atması və Ermənistanın işğalçılıq siyasətinə dəstək cəhdinin qarşısının alınmasında iştirakı zəruridir.

http://www.stopprovocation.com/




# Dağlar diyarı LERİK



Lerik deyəndə istər-istəməz gözlərimiz qarşısında əsrarəngiz mənzərələr, uca dağlar, dərin dərələr, sıldırım qayalar, yaşıl donlu meşələr, axan çaylar, buz bulaqlar canlanır. Bunlara tamaşa etdikcə xəyalın qanad çalıb səni başqa bir aləmə - səsi-sorağı əsrlərin o tayından gələn keçmişlərə aparır. Fikirləşirsən ki, görəsən, nə zamandan mövcuddur Lerik adlı bu gözəl diyar. Yeri gəlmişkən qeyd edək ki, Lerik toponimi barədə müxtəlif rəy və mülahizələr var. Lakin onun yerli əhalinin "yağışlı-yağmurlu" mənasında işlətdyi "liklik" sözündən yarandığı ən çox uyğun gələni və məntiqlisidir.




Fransız alimləri Henri və Jak Morqan qardaşları XIX əsrin sonlarında Lerikdə qazıntılar apararkən eramızdan əvvəl Son Tunc və İlk Dəmir dövrlərinə aid qəbir və kurqanlar aşkar etmişlər. Azərbaycan alimi Q.Qafarlının rəhbərliyi altında 1986-cı ildə arxeoloji abidələri tədqiq edən ekspedisiya isə burada qədim yaşayış yerlərini, Tunc dövrünə aid qəbir və kurqanları qeydə almışdır. Cənub bölgəsindəki dini-tarixi abidələrin çoxu Lerik rayonu ərazisindədir. Qız qalası, Oğlan qalası, Büzeyir qalası, Digah qalası orta əsr abidələri kimi dövlət tərəfindən mədəni irs siyahısına daxil edilmişdir. Rayonun Xanagah kəndində XIV əsrə aid Xoca Seyid, Cəngəmiran kəndində Xəlifə Zəkəriyyə, Lənkəran-Lerik magistral şose yolunun 40-cı kilometrliyində Babagil, Lerik şəhəri yaxınlığında Cabir, Orand kəndində Kəla türbələri bölgədə islam dininin geniş yayılmasını göstərir.

Təbiət gözəllikləri ilə zəngin olan qədim dağlar diyarında ömürlər də uzun olur. Bu haqda danışanda keçən əsrin 60-70-ci illəri yada düşür. O zaman planetimizin ən yaşlı sakinləri sayılan Şirəli Müslümov və Mahmud Eyvazov burada yaşayırdılar. Dünyanın hər yerindən jurnalistlər, alimlər, həkimlər, digər maraqlananlar Lerikə gəlib onlarla görüşür, sorğu-sual keçirir, onların həyat tərzini, uzunömürlülüklərinin sirlərini öyrənməyə çalışırdılar. Mətbuat səhifələrində Yer kürəsinin ən yaşlı sakinləri haqqında maraqlı yazılar dərc olunar, televiziya ekranlarında verilişlər göstərilərdi. Bu gün də Lerikdə yaşı 100-dən çox olan 25 nəfər var. Rayon mərkəzində yaradılmış "Uzunömürlülər muzeyi"ndə maraqlı fotoşəkillər, eksponatlar saxlanılır. Onların hər biri uzunömürlü insanların keçdiyi həyat yolunun müxtəlif illərini, günlərini, anlarını əks etdirir. Lerikə gələn elə qonaq, elə turist olmaz ki, bu muzeyə baş çəkməsin.

Bax beləcə, dağlar diyarı illər, qərinələr, əsrlər keçdikcə, elə bu dünyanın özü kimi, dolub-boşalıb. Bir nəsil gəlib, digəri öz karvanını çəkərək köçüb gedib. Gələn hər insan nəsli də doğulduğu bu torpaqda bacardığı qədər iz qoymağa çalışıb. Bu mənada keçən əsr keşməkeşli, ziddiyyətli olsa da, Lerikin də inkişafında müəyyən rol oynayıb. Lakin onun tərəqqisi keçən əsrin 70-ci illərindən - xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələndən sonra başlayıb.

Burada bir haşiyə çıxaraq qeyd etmək lazımdır ki, ulu öndər bundan əvvəl də milli təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə çalışarkən dağ rayonu kimi Lerikl̇ə həmişə sıx təmasda olub. Bu sözlər də onundur: "Lerik Azərbaycanın ucqar dağ rayonudur... Orada gözəl insanlar, zəhmətkeş adamlar, qəhrəman insanlar yaşayır. Mən leriklilərlə əbədi dostam. Bu dostluq böyük sınaqlardan keçib". 1993-cü ilin yayında yenidən hakimiyyətə gələndən sonra da ümummilli lider bu rayonla, onun əhalisi, ayrı-ayrı insanları ilə əlaqəsini bərpa edib. Düzdür, o illər respublikada iqtisadiyyat çox zəifləmiş, sovet dövründən qalanlar dağıdılaraq məhv edilmişdi. Ancaq xalqda, eyni zamanda leriklilərdə belə bir inam vardı ki, böyük siyasətçi, polad iradəyə sahib olan Heydər Əliyevin rəhbərliyi altında hər şey öz axarına, nizamına düşəcək. Belə də oldu. "Əsrin müqaviləsi" imzalandı, mühüm əhəmiyyətli islahatlar həyata keçirildi. Bütün bunlar bəhrəsini verməyə başladı. Gənc, müstəqil respublikamız inkişaf yoluna qədəm qoydu.

2004-cü ilin fevral ayının 11-də Prezident İlham Əliyevin imzaladığı Regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramı bütün bölgələrimiz kimi, Lerik rayonunun yüksəlişi üçün də üfüqlər açdı. Genişmiqyaslı tikinti-quruculuq, abadlıq işlərinə başlanıldı. İlk olaraq uzun illərdən bəri təmir edilməyən, sökülüb-dağılmış 56 kilometrlik Lənkəran-Lerik şose yolu yenidən quruldu. İlk dəfə rayona təbii qaz xətti çəkildi. Bunların açılışında iştirak etmək üçün Prezident İlham Əliyev 2005-ci ilin 8 sentyabrında Lerik rayonuna gəldi. Bu, əsl bayram idi.

İllər keçdi, yığılıb qalan problemlər mərhələli şəkildə öz həllini tapmağa başladı. Əhalinin elektrik enerjisi təminatında əsaslı dönüş yarandı. 2009-cu ildə qəbul edilən Regionların sosial-iqtisadi inkişafı II Dövlət Proqramı ilə bağlı Lerik daha da inkişaf etdi. Yeni təhsil, səhiyyə, mədəniyyət ocaqları inşa olundu, köhnələri əsaslı təmir edildi. Yeni obyektlərin tikilib istifadəyə verilməsi nəticəsində çox sayda iş yerləri açıldı. Salınan parklar, xiyabanlar, abad küçələr, meydanlar rayon mərkəzinin simasını tanınmaz dərəcədə dəyişdi. Ona şəhər statusu verildi. Prezident Lerikə növbəti səfərləri çərçivəsində burada açılışlar etdi, yeni obyektlərin əsasını qoydu, rayonun gələcək sosial-iqtisadi inkişafı üçün sərəncamlar imzaladı.

Rayon indi inkişafının yeni dövrünü yaşayır. Regionların sosial-iqtisadi inkişafı III Dövlət Proqramı çərçivəsində burada təbii qaz, yol çəkilişi işləri davam etdirilir. Kənd təsərrüfatının, turizmin inkişafı üçün tədbirlər həyata keçirilir. Gündən-günə gözəlləşir, abad olur dağlar diyarı. Lakin bu gözəllik insan olmasaydı, kimsəsiz yetim kimi görünərdi. Onu dəyərləndirən, hüsnünə heyran olan insan da onun qarşısında borclu qalmır. Zəhməti, zövqü, gücü, qüdrəti ilə onun hüsnünə yeni rənglər, çalarlar qatır, öz diyarını daha gözəl edir. Eyni zamanda neçə-neçə ziyalının, müxtəlif peşə sahiblərinin, zəhmətkeş insanların dünyaya göz açdığı, boya-başa çatdığı yurd yeridir dağ-dərəli bu torpaq. Onlar ölkəmizin elmi, iqtisadi, mədəni potensialının inkişaf etməsi üçün gecəni gündüzə qatır, həm Azərbaycanın, həm də doğulduqları Lerikin adına şöhrət gətirirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***







# Fermerin təklifi var



Bərəkətli Muğan düzünü bəzən Azərbaycanın bərəkət boğçası da adlandırırlar. Münbit torpağı, zəhmetkeş insanları ilə şöhrət qazanmış bu diyar yetirdiyi bol kənd təsərrüfatı məhsulları ilə bu gün də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına sanballı töhfələr verir.





Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrdən olan pambıqçılığı inkişaf etdimək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə verdiyi tapşırıq və tövsiyələr Sabirabadda da razılıqla qarşılanmışdır. Təsadüfi deyil ki, pambıqçılığın inkişafına həsr edilmiş ilk respublika müşavirəsi də Sabirabadda keçirilmişdir. Bu seçim hələ sovet dönəmində Azərbaycanın qabaqcıl pambıqçılıq rayonu kimi şöhrət qazanmış Sabirabadın mövcud potensialına, buradakı əmək və torpaq ehtiyatlarına verilən böyük dəyərin göstəricisi kimi qiymətləndirilməlidir. Təbiətin yaratdığı problemlərə, qarşıya çıxan obyektiv çətinliklərə baxmayaraq, Sabirabad kəndlisi pambıqçılığın inkişafı üçün əlindən gələni əsirgəmir. Rayonda bu istiqamətdə həyata keçirilən tədbirlər məhsul istehsalını artırmağa imkan yaradır.

İndi rayonda pambıq yığımının qızğın çağıdır. Min bir zəhmətlə hasilə gələn məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün bütün qüvvələr səfərbərdir. Rayonda pambıqçılıq sahələrində qazanılan şöhrətin ağır yükünü çiyinlərində daşıyan hünərvər əmək adamlarından biri İxtiyar Mehdiyevdir. İxtiyar kişi Bulaqlı kəndində bacarıqlı fermer kimi tanınır. Kolxoz zamanı rayonun qabaqcıl pambıqçılıq briqadirlərindən olub. İllər keçsə də, qırılmaz tellərlə bağlandığı torpaqdan ayrılmayıb. Pambıq ustası bu il 21 hektar sahədə pambıq əkib-becərib.

Biz onun sahəsində olanda pambıqyığan maşınlar ağ örpəkli tarlada işləyirdi. Birinci yığımın nəticəsi İxtiyar kişinin nurlu çöhrəsini bir az da işıqlandırmışdır. Hələlik hər hektarın məhsuldarlığı 37 sentnerdir. İkinci yığımda da nəticənin yüksək olacağı gözlənilir. Hələ kolların üzərində açılmamış xeyli qoza var.

İxtiyar kişi xeyirxah, imanlı bir ağsaqqal kimi də bölgədə böyük nüfuza malikdir. Gəncə Texnologiya İnstitutunda ali təhsil alıb. Deyir ki, ən böyük məktəb həyatın özüdür. Ona hamı Hacı deyə müraciət edir. 1990-cı ildə Məkkə ziyarətində olub. Sonralar Kərbəlanı və Məşhədi də ziyarət edib. Maraqlı həmsöhbətdir. Həyata fərqli baxışa, zəngin dünyagörüşünə malikdir. Təbii ki, günümüzün hünər meydanı sayılan tarlada baş tutan söhbətimizin əsas mövzusu torpaqla, zəhmətlə, məhsul bolluğundan yaranan xoş ovqatla bağlı idi.

Hacı İxtiyarın dedikləri:

- Torpaq müqəddəsdir. Sevdiyimiz, uğrunda canımızdan, qanımızdan keçdiyimiz vətən onun üzərində bərqərar olub. Əgər torpaq yoxdursa, vətən real həyatdan uzaqlaşıb xəyallarda ünvan tapır. Ulu Dədə Qorquddan gələn "Əgər torpağı qorumursansa, əkib-becərməyə dəyməz, yox əgər əkib-becərmirsənsə, qorumağa dəyməz" ideyası mənim üçün həyatın mənasıdır. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev işğal altındakı torpaqlarımızı azad etmək üçün lazım olan hər şeyi edir. Biz qürur duyuruq ki, bu gün Azərbaycanın güclü ordusu var. Qələbənin yaxında olduğuna, Ali Baş Komandanın güclü iradəsinə, müdrik siyasətinə, ordumuzun qüdrətinə inanırıq. Bu fikirləri gəlişi xoş sözlər kimi demirəm. Demək istədiyim odur ki, torpaqlarımız vətənpərvərliklə qorunur. Biz əmək adamlarının üzərinə düşən vəzifə isə hər qarış torpağı qayğı ilə əkib-becərmək, istehsal etdiyimiz bol məhsuldan yüksək səmərə götürməkdir. Bu, həm dövlətimizin iqtisadi gücünə güc qatır, həm də aqrar sektorda çalışanların xoş güzəranını, firavan həyatını təmin edir. Pambığın dünyada etibarlı bazarı var. İndi ölkəmizdə bir kiloqram pambığın qiyməti artırılaraq 75 qəpiyə çatdırılmışdır. Bunun 65 qəpiyini şirkət ödəyir, 10 qəpiyini dövlət subsidiya kimi verir. Bu gün üçün yaxşı qiymətdir. Cari ildə pambıq əkdiyimiz 21 hektardan azı 50 min manat xalis gəlir gözləyirik. Bu, yaxşı qazancdır. İlin aylarına böləndə hər aya 4 min manatdan da çox düşür.

Aqrar sektorda qazanılan uğurların əsas təməli sayılan torpaqdan elmi surətdə əsaslandırılmış qaydada istifadə etmək zamanın tələbidir.

Bu gün biz torpaqdan çox da səmərəli istifadə etmirik. Əkib-becərdiyimiz torpağın üzvi və mexaniki tərkibi haqqında bilgilərimiz yoxdur. Bilmirik ki, onun hansı mineral gübrələrə ehtiyacı var. Yaxşı olar ki, bölgələrdə aqrolaboratoriyalar yaradılsın. İki ildən bir torpaqdan nümunələr götürülüb laboratoriyalarda analiz edilsin. Belə olarsa, biz də torpağın ehtiyaclarını elmi surətdə qarşılayarıq. Yoxsa əlimizə keçən gübrəni, faydası olub-olmadığının fərqinə varmadan, torpağa vermək düz deyil. Bir təklifim də gübrə üçün dövlətin verdiyi subsidiya ilə əlaqədardır. Yaxşı olar ki, bu subsidiya pul şəklində deyil, gübrə formasında verilsin. Etiraf edək ki, ayrılan subsidiyanı pul kimi alan adamların çox az hissəsi onu gübrə almağa xərcləyir. Nəticədə istismar olunan torpaq get-gedə gücdən düşür, məhsuldarlığını itirir.

Bizcə, zəhmət adamının təklifi barədə düşünməyə dəyər.

***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Ağdaş düyüsü" yerli brendə çevrilsə də...

## ...Onun satışında və emalında müəyyən problemlər var

Ağdaşın aqrar sektorunda çəltikçiliyin xüsusi yeri, çəkisi var. Təsadüfi deyil ki, uzun zamanlardan bəri Ağdaş düyüsü adla deyilir. Bu düyüdən bir dəfə istifadə edən onun daimi alıcısına çevrilir. Elə bu səbəbdən son illər rayonda bu sahəyə maraq daha da artmışdır.







Ağdaş Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Rahim İsmayılov deyir ki, bu il rayonda 589 hektar sahədə çəltik əkilib. Əkinin daha çox aparıldığı kəndlər arasında Aşağı və Yuxarı Nemətabad kəndləri, Qumlaq, Şıxlı, Ləki və digərləri var. Fermerlər əsasən "Yerli bezos", "Ağ mirvari", "Qırmızı mirvari", "Çappa", "Ağ gilə" sortlarının əkilməsinə daha çox üstünlük verirlər. Ölkəmizdə istehsal olunan digər kənd təsərrüfatı məhsulları kimi, yerli düyü də ekoloji cəhətdən təmiz olduğuna və qidalılığına görə idxal edilən düyülərdən daha keyfiyyətlidir.

Bu il havaların isti keçməsi səbəbindən suya tələbat çox olsa da, Ağdaşda çəltiyin becərilməsi aqrotexniki tələblərə uyğun şəkildə aparılıb. Artıq sahələrin əksər hissəsi yığılıb. Hektardan orta məhsuldarlıq təxminən 30-32 sentner olub.

Yığımda iki çəltikbiçən kombayndan istifadə edilib. Amma bu, əkin sahələrinin həcmi ilə müqayisədə çox azdır. Məlumat üçün bildirək ki, rayon ərazisində cari il təxminən 35 fermer və onların hər birinin yanında 3-4 nəfər çəltikçiliklə məşğul olub. Başqa bir problem qiymətlə bağlıdır. Belə ki, emal prosesindən keçən düyünün hazırkı qiyməti yerində 1-1,20 manat arasında dəyişir. Maya dəyərinin 80-85 qəpik arasında olmasını nəzərə alsaq, istehsalçıya qalan qazanc çox azdır.

Qumlaq kənd sakini Seyran İsgəndərovla Aşağı Nemətabad kəndində emal müəssisəsində görüşdük. Öyrəndik ki, 5 hektar sahədə çəltik əkib. Məhsuldarlıq da yaxşı olub - hektardan 30-35 sentner. O, əlavə olaraq çəltik dəyirmanında da işləyir. Burada həm öz, həm də başqalarının çəltiyini üyüdür.

Bildirdi ki, İran İslam Respublikasından 3 dəyirman dəsti alıb gətiriblər. Biz sahədə olan zaman dəyirmanlardan ikisi qoşulmuşdu. Dediyinə görə, zərurət yaranacağı halda üçüncünü də quraşdıracaqlar. Amma emal sahəsində də problemləri var. Bu da əsasən elektrik enerjisi təchizatı ilə bağlıdır. Mühərriklərin gücü yüksək olduğundan çox enerji tələb edir. Odur ki, sayğac lazımdır. Amma dəfələrlə sayğac quraşdırılması üçün müraciət etsələr də, nəticəsi olmayıb. Ona görə də bu gün göstərilən xidmət əvəzində əldə olunan gəlirin xeyli hissəsi elektrik enerjisinə sərf edilir.

Digər çətinlik isə yerli düyünün alış bazarının zəif olmasıdır. Bu gün yerli düyü əsasən daxili bazarda satılır ki, bu da nə həcm, nə də qiymət baxımından sərfəlidir. İstehlak bazarının dünyanın ayrı-ayrı yerlərindən gələn və çox halda mənşəyi bəlli olmayan düyülərlə dolması yerli məhsulu sıxışdırır. Halbuki yerli düyü idxal olunanlarla müqayisədə bütün keyfiyyət meyarlarına görə daha üstün və qiymət sarıdan daha sərfəlidir.

Ağdaşlı fermerlər bu sahəni davamlı olaraq inkişaf etdirmək niyyətindədirlər. Ona görə də çəltik istehsalı sahəsində toxumçuluq təsərrüfatlarının və yüksək məhsuldar toxum sortlarının yaradılmasını, çəltik əkini və yığımı üçün texnikaların gətirilməsi və onların lizinq yolu ilə istehsalçılara satılmasını, həmçinin müasir çəltik emalı müəssisələrinin istifadəyə verilməsini istəyirlər.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## Bakı Şəhər İcra Hakimiyyəti
## "Yaşıl Teatr" Bakı Konsert Kompleksi
## tədbirlərin keçirilməsinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

**Tender 4 (dörd) LOT üzrə keçirilir.**

**LOT-1** 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dövlət tədbiri
**LOT-2** Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərində yeni il tədbirləri
**LOT-3** Xarici ölkələrin bayraqlarının alınması
**LOT-4** İşğal olunmuş rayonların işğal günlərinin yad edilməsi ilə əlaqədar, xarici qonaqların Bakı şəhərinə gəlişi ilə əlaqədar əklillərin, qızılgüllərin alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı, 1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu tel: 492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kod:** 200059
**VÖEN:** 9900003611
**M/H:** AZ37NABZ01350100000000001944
**SWIFT:** AIIBAZ2X
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/ H:** AZ05AIIB33070019443501623105
**VÖEN:** 1700779931

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru " Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 26 noyabr 2018-ci il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Bakı şəhəri, Sona Vəlixanlı küç., 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 27 noyabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

## 13 oktyabr Beynəlxalq Təbii Fəlakət Günüdür

# Odda yanıb, suda boğulanlar

*Hər il təbii fəlakətlər dünyada 250 mindən artıq insanın ölümünə səbəb olur*

Təbiətə ana deyib, onun xilasını daim düşünən insan bəzən bəlkə də bilməyərəkdən ona qənim kəsilir. Bu səbəbdən də "Yer kürəsi, az qala, məhvərindən çıxır, çərxi dönür". Min illərdir ki, təbiət hadisələrindən savayı süni surətdə törədilən fəlakətlər ana təbiəti haray çəkməyə məcbur edib. Dünyanın əşrəfi sayılan insan bax beləcə, özünə və anasına bəzən qənim kimi görünür. Bura təbiət hadisələrini də əlavə etsək, nəinki üstündə dünyaya göz açdığımız Yer kürəsinin, hətta, səmamızın da xilasına ehtiyac duyulduğunu deməliyik. Buna görə də həyəcan təbili çalmağın zamanıdır.







Bunun üçün də təbii fəlakətlər zamanı daha tez xəbərdar olunma və qorunma barədə insanların maarifləndirilməsinə ciddi ehtiyac var. BMT-nin hesabatlarına əsasən, 1970-2010-cu illər arasında təbii fəlakətlər zamanı 3 milyondan çox insan həlak olub. Başqa sözlə desək, orta hesabla hər il təbii fəlakətlərdən ölənlərin sayı dünyada 250 min nəfərdən artıqdır. Bu, məsələnin bir tərəfidir. Axı, təbii fəlakət yalnız insan ölümünə səbəb olmur. Ümumiyyətlə, fəlakət itki, faciə ilə sona çatır. Demək, fəlakət özü ilə həm də maddi ziyanlar gətirir. Hesablamalara görə, il ərzində təbii fəlakətin vurduğu ziyan 50 milyard ABŞ dollarından 100 milyardadək artır. Asiya isə, ümumiyyətlə, təbii fəlakətlərin daha çox məruz qaldığı qitə hesab edilir. Uzaq Şərqdən dağıdıcı tayfunlar, Çindən daşqınlar, Tacikistandan sel axınları, demək olar ki, əskik olmur.

İslandiyada püskürən vulkanın yaratdığı kül dumanının kosmosdan çəkilən fotosuna baxanda adamı vahimə bürüyür. Həmin fəlakət zamanı ölənlər olmasa da, Avropanın bütün aviasistemi iflic vəziyyətinə düşüb ki, bu da ciddi maddi itki demək idi.

Hər hansı ölkədə düzgün ekoloji siyasət qurularsa və onun həyata keçirilməsi üçün zəruri şərait yaradılarsa, ətraf mühitin qorunması problemi qismən də olsa, öz həllini tapar. Azərbaycanda bu məsələnin daim diqqət mərkəzində saxlandığını beynəlxalq təşkilatlar daim öz hesabatlarında qabarıq şəkildə qeyd edir. 2010-cu ilin "Ekologiya ili" elan edilməsi də buna misaldır.

Fəlakət, bədbəxtlik insan həyatını puç edən məsələlərdir ki, yüz illərlə öz həllini gözləyir. Bu, əlbəttə, yalnız təbii fəlakətlər hesabına yaranan problemlər deyil. Süni şəkildə yaradılan milli, məhəlli, regional, həmçinin etnik münaqişələr və onların böyüdülərək elan olunmamış müharibələrə çevrilməsi də fəlakət sayılır. Belə fəlakətlər də insanları qaçqın-köçkün vəziyyətinə salır. Dəhşətli faktlardan biri də odur ki, bu gün dünyada 43 milyon nəfər qaçqın var. Öz evlərini məcburi şəkildə tərk etməyə, haralarasa qaçmaqla can qurtarmağa çalışanların 26 milyonu daxili köçkünlərdir. Maraqlı budur ki, qaçqınların 80 faizi inkişaf etməkdə olan ölkələrdə sığınacaq tapıb. BMT-nin baş katibi Antonio Quttereşin söylədiyi faktlara əsasən, bu gün həmin dövlətlərdə onlara yardım göstərilməsi üçün böyük beynəlxalq həmrəylik lazımdır: "Bizim günlərdə adamların köçkün düşməsi iqlim dəyişikliyinin kombinasiyası, əhalinin artımı, urbanizasiya, su qıtlığı, digər resurslar uğrunda rəqabət mübarizəsinin nəticəsidir. Bütün bu amillər bir-biri ilə qarşılıqlı əlaqədədir. Onlar qeyri-sabitliyə və münaqişələrə gətirib çıxarır, adamları didərgin salır".

550 milyonluq əhalisi olan Avropanın 800 min nəfər qaçqının problemi qarşısında aciz qaldığı çox da uzaq tarix deyil. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində dövlətimiz neçə onilliklərdir ki, 1,2 milyonluq qaçqın və məcburi köçkünün problemlərinin öhdəsindən gəlir. Azərbaycana səfər edən nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri dövlət başçısının səmərəli fəaliyyəti nəticəsində ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətləri bütün dünyaya nümunə göstərirlər.

Böhran, fəlakət, təcavüz, işğal son iki əsrdə xalqların leksikonuna daxil olan ifadələrdir. Planetin müxtəlif qütblərində baş vermiş təbiət hadisələri, eləcə də, süni problemlər: məhəlli və beynəlxalq münaqişələr, müharibələr, terror və s. nəticəsində zərər çəkmiş insanların üzləşdiyi hallar humanitar yardımlara ciddi ehtiyacın yarandığını üzə çıxarıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Qasırğa ABŞ hərbi bazasını xaraba qoydu



"Maykl" qasırğası ABŞ-ın Florida ştatında "Tindall" hərbi hava bazasına ciddi ziyan vurmuşdur. Bu barədə hərbi hissə məlumat vermişdir.

Məlumatda deyilir ki, təyyarələrə xidmət zonası dağılmışdır. Hər bir tikiliyə ciddi ziyan dəymişdir. Bir çox binalar tamamilə sıradan çıxmışdır. Qasırğa "Tindall" körpüsünü uçurmuşdur.

Hazırda baza bağlanmışdır. Elektrik təchizatı və əsas kommunikasiyalar işləmir. Bununla belə, hərbi obyektin nümayəndələrinin dediklərinə görə, hakimiyyət orqanları hadisəyə dərhal reaksiya vermişdir və kömək gözlənilir.

Xatırladaq ki, "Maykl" qasırğası ötən çərşənbə günü Floridada Meksiko-Biç şəhərindən şimal-qərbə doğru sahili vurmuşdur. Həmin gün küləyin sürəti saatda 250 kilometrə çatırdı. Ekspertlərin hesablamalarına görə, təbii fəlakətin vurduğu maddi ziyan təxminən 30 milyard dollar ola bilər.

## Qərb ölkələri Ər-Riyadla əlaqələrə yenidən baxa bilər



"Virgin Group" beynəlxalq investisiya şirkəti səudiyyəli jurnalist Camal Qaşıqçı yoxa çıxdıqdan sonra Səudiyyə Ərəbistanının milyard dollarlıq investisiya layihəsinin reallaşdırılmasını təxirə saldığını bəyan etmişdir. Bu barədə CNN telekanalı xəbər verir.

Şirkətin təsisçisi, britaniyalı sahibkar Riçard Brenson qeyd etmişdir ki, Qaşıqçının yoxa çıxması barədə məlumat təsdiqlənsə, Qərb ölkələri Səudiyyə Ərəbistanı ilə əməkdaşlıq prinsiplərinə yenidən baxacaq. O məlumat vermişdir ki, şirkət Səudiyyə Ərəbistanından tanınmış jurnalistin yoxa çıxması ilə əlaqədar informasiya verməyi xahiş etmiş və Səudiyyə Ərəbistanının iri investisiya layihəsini reallaşdırmağı təxirə salmışdır. Səudiyyə Ərəbistanı ötən il "Virgin Galactic" və "Virgin Orbit"ə bir milyard dollar məbləğində sərmayə qoyacağını elan etmişdir.

Eyni zamanda mənzil-qərargahı San-Fransiskoda yerləşən "Uber" beynəlxalq özəl şirkəti bu ayın 23-25-də Ər-Riyadda keçiriləcək "Gələcək investisiya təşəbbüsü" (FİI) konfransına qatılmaqdan imtina etmişdir. "Uber"in baş icraçı direktoru Dara Xosrovşahi qeyd etmişdir ki, Qaşıqçının yoxa çıxmasından narahatdır və bu səbəbdən Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salmanın himayəsi altında keçəcək FİI konfransında çıxış etməkdən imtina etmək qərarına gəlmişdir.

"New York Times"dan sonra "Huffington Post" və "Los Angeles Times" qəzetləri də FİI konfransına informasiya dəstəyi verməkdən imtina etmişdir.

## Rusiya Belarusa neft məhsulları ixracını qadağan etdi



Rusiya gələn ilin axırınadək Belarusa bir sıra neft məhsullarının, həmçinin maye qazın ixracına qadağa qoymuşdur. Bu barədə "Röyter" agentliyi Rusiyanın energetika naziri Aleksandr Novaka istinadən xəbər verir.

Nazirin dediyinə görə, benzin, dizel yanacağı və mazut ixracının dayandırılması nəzərdə tutulur. Eyni zamanda iki ölkə arasında sazişə görə, Belarusda istehsal edilməyən və istehlak baxımından zəruri olan bəzi neft məhsullarının ixracı davam edəcək.

Bir müddət əvvəl Novak bildirmişdi ki, Rusiyadan Belarusa neft məhsulları ixracı məqsədəuyğun deyil. Onun dediyinə görə, Belarus Rusiya neftindən aldığı neft məhsulları ilə özü-özünü tamamilə təmin edir.

## Amerikalı model avtomobilində güllələndi



Amerikalı model Kelsi Kveyli Corciya ştatında trasda hərəkət edərkən öz avtomobilində güllələmişlər. Bu barədə "Fox 5 Atlanta" telekanalı xəbər verir.

Məlumata görə, naməlum şəxs qadının boynundan vurmuşdur. Cinayətin törədilməsinin ardınca yol-nəqliyyat hadisəsi baş vermişdir. Belə ki, Kveylin maşını idarəetmədən çıxaraq qarşı zolağa keçmiş və üç avtomobilə çırpılmışdır.

Polis hadisənin bir neçə versiyasını nəzərdən keçirir. Ola bilsin ki, model başqa bir sürücü ilə münaqişəyə girmiş, yaxud atışmanın təsadüfi qurbanı olmuşdur.

## Uqandada 40 nəfər torpaq sürüşmələrinin qurbanı oldu

Uqandanın şərqində torpaq sürüşmələri nəticəsində 40 nəfər həlak olmuşdur. Bu barədə Bududa dairəsinin başçısı Uilson Uatira məlumat vermişdir.

Dairənin sakinləri bildirmişlər ki, torpaq sürüşmələrinə srağagün səhər başlamış leysan yağışları səbəb olmuşdur. Təbii fəlakət qurbanlarının sayı xeyli arta bilər, çünki təsdiqlənməmiş məlumata görə, ucqar rayonlarda yüzlərlə adam itkin düşmüşdür.

Ölkə Prezidenti Yoveri Museveni məlumat vermişdir ki, zərərçəkən bölgəyə axtarış-xilasetmə komandaları göndərilmişdir.

## Türkiyə məhkəməsi amerikalı keşiş Bransonu azad edib



Türkiyənin İzmir şəhər məhkəməsi amerikalı keşiş Endryu Bransona 3 il 1 ay 15 gün həbs cəzası verib və onu ev dustaqlığından azad edib.

Məhkəmə Bransonun nəzarətdə olduğu müddəti nəzərə alaraq onun üzərindən cəzanı, o cümlədən xaricə çıxmaq qadağasını aradan qaldırıb.

Əvvəllər məhkəmə keşişin vəkillərinin apelyasiyasını üç dəfə rədd etmişdi.

Qeyd edək ki, Bransonun işi ilə əlaqədar Vaşinqtonla Ankaranın münasibətləri xeyli gərginləşmişdi. 2016-cı ildə həbs edilən amerikalı keşiş dövlət çevrilişinə cəhddə əli olmaqda və PKK ilə əlaqədə şübhəli bilinirdi. Avqust ayının əvvəllərində ABŞ-ın Maliyyə Nazirliyi Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül və daxili işlər naziri Süleyman Soyluya qarşı "insan haqlarının ciddi pozulması" ittihamı ilə sanksiya tətbiq etmişdi.

Bundan sonra ABŞ Prezidenti Donald Tramp Türkiyədən idxal edilən alüminium və poladın rüsumlarını artırmışdı. Ankara isə buna cavab olaraq Amerika istehsalı olan bir sıra məhsulların, o cümlədən tütün, spirtli içkilər, avtomobil, kosmetik vasitələr, düyü və meyvələrin rüsumunu qaldırmışdı.

## Sabah ölkə ərazisində hava yağıntılı olacaq




Azərbaycanda oktyabrın 13-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 13-15°, gündüz 16-19° isti olacağı proqnozlaşdırılır.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 18-23° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 16-20° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 13-18° isti, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında gecə və səhər bəzi yerlərdə yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 17-22° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı proqnozlaşdırılır. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 14-16°, gündüz 17-21° isti, dağlarda gecə 7-12°, gündüz 12-16° isti olacağı gözlənilir.

## Atəşkəs rejimi 27 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və kollektivi "Barattson" MMC-nin rəhbəri Elşən Rəhimova anası

**SƏYALI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Tarif (qiymət) Şurası Katibliyinin kollektivi Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası

**MƏHƏMMƏDƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8407
Sifariş 2976